

**Müstəqillik Günün mübarək, Azərbaycan!** 6

# İLHAM ƏLİYEV: "Böyük Qayıdış"ın birinci kiçik addımı bu gün atılır!"

2




# Səs

№ 94 (6535) 28 may 2022-ci il. Qiymәti 60 qəpik


*Prezident İlham Əliyevin işğaldan azad olunmuş torpaqlara davamlı səfərləri və ən əsası, bu səfərlər zamanı həmin ərazilərdə aparılan quruculuq işləri çərçivəsində inşa edilən yeni strateji obyekt və müəssisələrin təməlinin dövlətimizin başçısı tərəfindən qoyulması həm siyasi, həm iqtisadi, həm mənəvi cəhətdən müstəsna əhəmiyyət kəsb etməklə yanaşı, dünyaya bir mesajdır.*

# Prezidentdən böyük humanizm: 613 nəfər əfv edildi!



*Prezident İlham Əliyevin 28 may Müstəqillik Günü ərəfəsində növbəti dəfə əfv sərəncamı imzalaması Azərbaycanda həyata keçirilən uğurlu siyasət reallığında humanizm prinsiplərinin nə qədər əhəmiyyət kəsb etdiyini bir daha nümayiş etdirdi...*

## Zəngəzur dəhlizinin açılması Ankara-Bakı ittifaqına nə vəd edir?

7



## Erməni vandallığı: dağıdılan dini-tarixi abidələrimiz yenidən qurulur



9

*Azərbaycan xalqı 44 günlük Vətən müharibəsində dünyaya həmrəyliyi, xalq-iqtidar birliyini qazandığı Zəfər tarixində bir daha nümayiş etdirdi.*

## Vitali Arkov: Ermənistan müxalifəti və hakimiyyəti bir ələ oynayır

7



## Vay Ermənistan, vay...!

*Ermənistan revanşistlərinin əsas ruhlandırıcı şəxslərindən biri olan daşnak İşxan Saqatelyan, eləcə də keçmiş iqtidar rəhbərləri - Robert Koçarya və Serj Saqrsyan...* 13



## Məşhur aktrisa bir gündə sırf reklamdan 116 min qazanır



*Özündən 15 yaş kiçik Nazım Akmandillə eşq yaşayan və sevgilisi ilə yayın sonunda evlənməyə hazırlaşan Türkiyənin məşhur aparıcısı, model və aktrisa Burcu Esmersoy gündəlik qazancı ilə gündəmə gəlib.* 16





## "Festival Ermənistana ötürülən bir mesaj deyil, həm də..."

*"Teknofest" yeni müasir texnikaların festivalı olmaqla bərabər, həm də müasir döyüş texnikasının sərgiləndiyi bir festivaldır". Bu sözləri SİA-ya açıqlamasında politoloq Fərhad Mehdiyev deyib...*



## Taleyimizdəki rəqəmlər: 104, 70, 30...

10

*Bu gündən dünənə nəzər salanda diqqətimi ən çox çəkən də 30-dur, gözlərim önünə gələn də ancaq 30-dur...*



## Ağciyər xərçənginin qarşısını alan keçibuynuzu

16

Xarici görünüşünə görə keçinin buynuzlarını xatırlatdığına görə ona keçibuynuzu adı verilib...

# İLHAM ƏLİYEV: "Böyük Qayıdış"ın birinci kiçik addımı bu gün atılır!"

*Prezident İlham Əliyevin işğaldan azad olunmuş torpaqlara davamlı səfərləri və ən əsası, bu səfərlər zamanı həmin ərazilərdə aparılan quruculuq işləri çərçivəsində inşa edilən yeni strateji obyekt və müəssisələrin təməlinin dövlətimizin başçısı tərəfindən qoyulması həm siyasi, həm iqtisadi, həm mənəvi cəhətdən müstəsna əhəmiyyət kəsb etməklə yanaşı, dünyaya bir mesajdır.*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva mayın 26-da Füzuli, Cəbrayıl və Zəngilan rayonlarına səfər ediblər. Dövlətimizin başçısı və birinci xanım Füzuli rayonunda Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun tikintisi ilə tanış olub, Cəbrayıl rayonunda Horadiz-Ağbənd dəmir yolu xəttinin Soltanlı stansiyasının və "Azərenerji" ASC-nin 330/110 kV-luq "Cəbrayıl" enerji qovşağının təməlqoyma mərasimində iştirak ediblər. Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilan rayonuna gəliblər. Dövlətimizin başçısı və birinci xanım Zəngilan Beynəlxalq Hava Limanının və "Paşa Holding" MMC-nin dəstəyi ilə Heydər Əliyev Fondu tərəfindən inşa olunan Zəngilan məscidinin tikinti işləri ilə tanış olub, İşğal və Zəfər muzeyləri kompleksinin təməlqoyma mərasimində iştirak edib-







lər. Daha sonra Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya Zəngilan şəhərinin Baş planı təqdim olunub. Birinci vitse-prezident Mehriban Əliyeva səfərlə bağlı paylaşım edib.

## "HƏR KƏS BİLİR Kİ, AZƏRBAYCANLA HESABLAŞMAQ LAZIMDIR"

"Biz müstəqilliyimizin möhkəmlənməsi istiqamətində çox böyük işlər görmüşük. Siyasi cəhətdən tam müstəqilik. Heç bir ölkə bizim iradəmizə təsir edə bilməz və bunu artıq hər kəs bilir ki, Azərbaycanla hesablaşmaq lazımdır, Azərbaycanın mövqeyini nəzərə almaq lazımdır. Azərbaycan özünə hörmət edən dövlətdir və hər kəsdən bu hörməti tələb edir və bunu əldə edir". Bu fikirləri Prezident İlham Əliyev mayın 27-də Zəngilan rayonunun Ağalı kəndində ictimaiyyətin nümayəndələri ilə görüşdə çıxış edərkən deyib. Azərbaycanın iqtisadi cəhətdən müstəqil ölkə olduğunu vurğulayan dövlətimizin başçısı bildirib: "Bu gün iqtisadi cəhətdən müstəqil ölkələrin sayı o qədər də çox deyil. Bunu yaxın tarix göstərir. Ancaq biz tam müstəqilik, heç kimdən asılı deyilik, öz həyatımızı özümüz qururuq və heç bir yardıma, kreditə ehtiyacımız yoxdur. Əksinə, biz özümüz indi bəzi ölkələrə kreditlər veririk. Məhz iqtisadi müstəqillik nəticəsində bu gün, bax, bu Ağalı kəndi deyə bilərəm ki, dünyanın ən mütərəqqi kəndlərinin birinə çevrilib. Bunu biz etmişik, öz gücümüzlə və azad edilmiş bütün digər torpaqlarda öz gücümüzlə bərpa işlərini aparırıq və indi nəhəng layihələr icra edilir. Bu haqda Azərbaycan xalqı müntəzəm olaraq məlumatlandırılır".

## "BİZ GÜCLÜ OLMASAQ, İSTƏDİYİMİZ KİMİ YAŞAYA BİLMƏRİK"

Dövlət başçısı Zəngilan rayonunun Ağalı kəndində sakinlərlə görüşdəki çıxışında dünyada güc amilinin ön planda olması və ölkəmizin öz gücünü artırmasının zəruriliyi məsələsinə də toxunub. Dövlət başçısı çıxışında bu barədə deyib: "Bu gün güc amili ön plandadır. Mən bu haqda hələ on il bundan əvvəl demişdim. Mənim çıxışlarımın hamısı mətbuatda var. Dedim ki, beynəlxalq hüquq işləmir. Biz özümüzü aldatmamalıyıq, daha güclü olmalıyıq, güc toplamalıyıq. Lazım olarsa düşməni güc yolu ilə torpağımızdan qovmalıyıq. Bunu demişəm də, bunu etmişəm də".

Güc amilinin bundan sonra da dünyada hakim olacağını vurğulayan Azərbaycan Prezidenti qeyd edib: "Bunu indi yaxın tarix də göstərir. Ona görə bundan sonra da güclü olmalıyıq və güclü oluruq. Bu gün iqtisadi göstəricilərimiz çox müsbətdir. Deyə bilərəm ki, dünya miqyasında bu il ən sürətlə inkişaf edən ölkələrdən biri Azərbaycandır. Hərbi gücümüzü də artırırıq. Müharibədən sonra yeni silahlı birləşmələr yaradılıb, yeni texnika alınır və bundan sonra da biz bunu edəcəyik. Çünki biz güclü olmasaq, istədiyimiz kimi yaşaya bilmərik. Biz istəyirik ki, azad yaşayaq. Biz istəyirik ki, bundan sonra heç kim bizim işimizə qarışmasın. Buna ehtiyac yoxdur. Biz elə gözəl dövlət qurmuşuq ki, bu gün bir çoxları buna həsəd apara bilər. Heç kim gəlib bizə dərs oxumasın, məsləhət verməsin, öyrətməsin. Buna ehtiyac yoxdur".

## "ƏSL MÜSTƏQİLLİK HƏYATIMIZ XALQ ULU ÖNDƏRƏ MÜRACİƏT EDİB ONU HAKİMİYYƏTƏ DƏVƏT EDƏNDƏN SONRA BAŞLAYIB"

Dövlət başçısı bildirib ki, ancaq birinci respublika çox yaşaya bilmədi, süqut etdi, cəmi iki ilə yaxın müddət ərzində yaşamışdır: "Düzdür, bir çox önəmli addımlar atılmışdır və Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının xatirəsini biz daim hörmətlə anırıq. Ancaq, eyni zamanda, onu da bilməliyik ki, müstəqillik cəmi iki il çəkdi. Ondan sonra Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi, müstəqilliyi qoruya bilmədi və Azərbaycan xalqı azadlıqdan məhrum edildi. Bununla bərabər, hamımız yaxşı bilirik ki, o vaxt Ermənistan millətçiləri xalqımıza və gənc Xalq Cümhuriyyətinə qarşı təcavüzə başlamışdılar və bunun nəticəsində Azərbaycan xalqı böyük əzablar yaşamışdır". Azərbaycan Prezidenti 1993-cü ildən başlayaraq xalqın Ulu Öndərə müraciət etdiyini və bundan sonra əsl müstəqillik həyatının başlandığını deyib: "1993-cü ildən başlayaraq xalq Ulu Öndərə müraciət edib onu hakimiyyətə dəvət edəndən sonra əsl müstəqillik həyatımız başlamışdır. Bu gün burada olmağımız, Ağalı kəndinin açılışında iştirak etməyimiz məhz müstəqilliyimizin möhkəmlənməsinə bağlıdır". "Nə XX əsrin əvvəllərində, nə də sonlarında müstəqilliyimiz möhkəm olmamışdır. Ona görə xalqımız böyük faciələrlə üzləşmişdi. Həm Şərqi Zəngəzur, həm Qarabağ işğala məruz qaldı. Ovaxtkı hakimiyyət torpaqlarımızı qoruya bilmədi. Ancaq bu gün müstəqilliyimiz möhkəmdir və bunun nəticəsində biz İkinci Qarabağ müharibəsində Qələbə qazandıq, tarixi Qələbə qazandıq. Bunun nəticəsində düşməni diz çökdürdük və bunun nəticəsində bu gün biz buradayıq", - deyə Prezident vurğulayıb.

## "BU GÜN GÖZƏL ZƏNGİLAN TORPAĞINDA HƏYAT QURURUQ"

"Biz 44 gün ərzində həm ərazi bütövlüyümüzü, həm ədaləti, həm milli ləyaqətimizi bərpa etdik. Bu gün, bax, bu gözəl Zəngilan torpağında həyat qururuq",-deyən Azərbaycan Prezidenti Zəngilana, başqa yerlərə, Şuşaya həyatın qayıtdığını deyib: "İndi yol boyunca gələn hər bir adam dəmir yolunu görür, avtomobil yolunu görür. Özü də altı və dörd zolaqlı avtomobil yolu. Zəngilanda hava limanı tikilir, bu il istifadəyə veriləcək. Artıq böyük aqropark salınıb, ilk məhsul bu il götürüləcək". Dövlət başçısı Zəngilanda böyük aqropark salındığını və bu il ilk məhsul götürüləcəyini də dedi: "Biz isə bundan sonra müzəffər xalq kimi yaşayacağıq. Biz 44 gün ərzində həm ərazi bütövlüyümüzü bərpa etdik, həm ədaləti bərpa etdik, həm milli ləyaqətimizi bərpa etdik. Bu gün, bax, bu gözəl Zəngilan torpağında həyat qururuq. Bax, həyat qayıdır - Zəngilana, başqa yerlərə, Şuşaya. Yaxşı bilirsiniz ki, bu bölgənin inkişafı üçün nə qədər böyük işlər görülür. İndi yol boyunca gələn hər bir adam dəmir yolunu görür, avtomobil yolunu görür. Özü də altı və dörd zolaqlı avtomobil yolu. Zəngilanda hava limanı tikilir, bu il istifadəyə veriləcək. Artıq böyük aqropark salınıb, ilk məhsul bu il götürüləcək". Prezident bildirib ki, dünən Zəngilan şəhərinin Baş planı ilə tanış olub: "Hesab edirəm ki, ən gözəl variantı seçdik. Bu sahədə təcrübəsi olan beynəlxalq şirkət Baş planı təqdim etdi və mən dedim ki, Zəngilan şəhəri park şəhərinə çevrilməlidir. Yəni, Zəngilanın təbiəti o qədər gözəldir ki, biz təbiətə bir zərrə ziyan vurmamalıyıq, əksinə, təbiəti daha da zənginləşdirməliyik, xüsusilə nəzərə alsaq ki, ermənilər Bəsitçay təbii qoruğunu da məhv etmişlər. O məşhur palıd ağaclarını da kəsmişlər, Oxçuçayı da zəhərləmişlər. Vejnəlidə də bizim qızıl yataqlarımızı istismar edərkən heç bir ekoloji normaya riayət etməmişlər. Biz təbiəti qorumalıyıq və Zəngilan şəhərinin artıq dünən Baş planı təsdiq olunandan sonra inşaat işləri başlanacaq". "Biz birinci layihəni icra etdik, bunu təqdim etdik, həm Ağalı kəndinin sakinlərinə, həm də bütün Azərbaycana. Bizim gələcək planlarımız da belədir". Bu barədə Prezident İlham Əliyev Zəngilan rayonunun Ağalı kəndində ictimaiyyətin nümayəndələri ilə görüşdə çıxış edərkən bildirib. Dövlətimizin başçısı deyib ki, birinci mərhələdə hər rayonda bir çox kəndlər seçilib və ilk növbədə, orada işlər aparılacaq. Ondan sonra insanlar qayıtdıqca, əlbəttə ki, bütün qalan yerləri də bərpa edəcəyik. "Bu il də investisiya proqramı təsdiq olunub və proqrama əlavələr də ediləcək.

Ardı Səh. 3

# İLHAM ƏLİYEV: "Böyük Qayıdış"ın birinci kiçik addımı bu gün atılır!"







Əvvəli-Səh-2

Mən bu gün bunu bəyan etmək istəyirəm. Biz dövlət büdcəsinə əlavələr etməliyik, çünki iqtisadi göstəricilər daha yaxşıdır. Gəlirlərimiz nəzərdə tutulandan daha çoxdur. Ona görə biz bu əlavə gəlirləri və iqtisadi imkanlarımızı səfərbər etməliyik ki, vaxt itirmədən azad edilmiş torpaqlarda daha böyük həcmdə iş görək", - deyə Prezident vurğulayıb.

### "BÖYÜK QAYIDIŞ"IN BİRİNCİ KİÇİK ADDIMI BU GÜN ATILIR"

Azərbaycan Prezidenti qardaş ölkənin - Türkiyənin Prezidenti Azərbaycana gələcəyini və Müstəqillik Gününü bərabər qeyd edəcəklərini deyib: "Sabah qardaş ölkənin - Türkiyənin Prezidenti Azərbaycana gələcək və biz Müstəqillik Gününü bərabər qeyd edəcəyik. Ona görə mən bir gün əvvəl gəldim, amma yenə də Müstəqillik Günü ərəfəsində. Çünki bunun böyük rəmzi mənası var, budur müstəqillik, budur azadlıq". "Xalqımız artıq 30 ildir ki, azad xalq kimi yaşayır və bütün əldə edilmiş nəticələr, o cümlədən şanlı Qələbəmiz bax, bunun təməlindədir, bu müstəqilliyin təməlindədir. Ona görə müstəqillik ən böyük dəyərimizdir, sərvətimizdir, qoruyuruq və əbədi qoruyacağıq. Bu gün "Böyük Qayıdış" dediyimiz prosesə start verildi. "Böyük Qayıdış"ın birinci kiçik addımı, bax, bu gün atılır", - deyə dövlətimizin başçısı vurğulayıb.

### "BÜTÜN DÜNYA, APARICI ÖLKƏLƏR VƏ APARICI BEYNƏLXALQ TƏŞKİLATLAR YENİ REALLIQLARI QƏBUL EDİBLƏR"

Azərbaycan Prezidenti, həmçinin onu da bildirib ki, artıq Dağlıq Qarabağ münaqişəsi həll olunub, Minsk qrupu öz fəaliyyətini başa vurub və indi postmünaqişə dövrüdür. Dövlətimizin başçısı deyib ki, postmünaqişə dövründə də biz gündəliyi diktə edirik və müharibədən keçən ilyarım ərzində nəyi istəmişiksə ona nail olmuşuq: "Nəyi demişəmsə buna biz nail olmuşuq, ya da ki, nail oluruq. Birincisi, bütün dünya, aparıcı ölkələr və aparıcı beynəlxalq təşkilatlar yeni reallıqları qəbul ediblər. Bu, çox vacib idi, çünki başqa cür də ola bilərdi. Bu, bizim çox böyük siyasi uğurumuzdur. İkincisi, bizim gündəliyimiz artıq aparıcı beynəlxalq təşkilatlar tərəfindən əsas kimi götürülür".

### "BİZ QALİB DÖVLƏTİK, ERMƏNİSTAN MƏĞLUB EDİLMİŞ DÖVLƏTDİR, BU REALLIĞI HƏR KƏS QƏBUL ETMƏLİDİR VƏ EDİR"

"Biz demişdik ki, Ermənistan ilə Azərbaycan arasında sülh müqaviləsi imzalanmalıdır. Ermənistan bundan boyun qaçırmağa can atırdı. Çünki sülh müqaviləsi ölkələrin ərazi bütövlüyünün qarşılıqlı surətdə tanınması deməkdir. Amma nəticə etibarilə biz buna da nail olduq və artıq Azərbaycan öz işçi qrupunu müəyyən edib". Bu barədə Prezident İlham Əliyev Zəngilan rayonunun Ağalı kəndində ictimaiyyətin nümayəndələri ilə görüşdə çıxış edərkən bildirib. Dövlətimizin başçısı deyib ki, daha bir vacib məsələ, Zəngəzur dəhlizinin açılmasıdır. Ermənistan hər zaman buna da maneçilik törətməyə çalışırdı. Amma yenə də, Brüssel görüşünün rəsmi açıqlamasına baxın, artıq həm dəmir yolu, həm avtomobil yolunun Mehridən, Zəngəzurdan keçməsi müəyyən olunub. Yəni, biz buna da nail oluruq: "Yəni, biz gündəliyi diktə edirik. Nəyin hesabına? Əlbəttə ki, müharibənin nəticələrinin hesabına. Çünki biz qalib dövlətik, Ermənistan məğlub edilmiş dövlətdir. Bu reallığı hər kəs qəbul etməlidir və edir. Əlbəttə ki, bu amil Azərbaycan-Ermənistan təmasları əsnasında ön plandadır".

### "ERMƏNİSTAN NƏ HƏRBİ, NƏ SİYASİ, NƏ İQTİSADİ CƏHƏTDƏN, HƏTTA ORTA SƏVİYYƏLİ DÖVLƏT SAYILA BİLMƏZ"

"Biz müstəqilliyimizin möhkəmlənməsi istiqamətində çox böyük işlər görmüşük. Siyasi cəhətdən tam müstəqilik. Heç bir ölkə bizim iradəmizə təsir edə bilməz və bunu artıq hər kəs bilir ki, Azərbaycanla hesablaşmaq lazımdır, Azərbaycanın mövqeyini nəzərə almaq lazımdır. Azərbaycan özünə hörmət edən dövlətdir və hər kəsdən bu hörməti tələb edir və bunu əldə edir",- deyən Prezident İlham Əliyev vurğulayıb ki, biz iqtisadi cəhətdən müstəqilik: "Bu gün iqtisadi cəhətdən müstəqil ölkələrin sayı o qədər də çox deyil. Bunu yaxın tarix göstərib. Ancaq biz tam müstəqilik, heç kimdən asılı deyilik, öz həyatımızı özümüz qururuq və heç bir yardıma, kreditə ehtiyacımız yoxdur. Əksinə, biz özümüz indi bəzi ölkələrə kreditlər veririk. Məhz iqtisadi müstəqillik nəticəsində bu gün, bax, bu Ağalı kəndi deyə bilərəm ki, dünyanın ən mütərəqqi kəndlərinin birinə çevrilib. Bunu biz etmişik, öz gücümüzlə və azad edilmiş bütün digər torpaqlarda öz gücümüzlə bərpa işlərini aparırıq və indi nəhəng layihələr icra edilir. Bu haqda Azərbaycan xalqı müntəzəm olaraq məlumatlandırılır". Prezident İlham Əliyev bildirib ki, siyasi və iqtisadi müstəqillik imkan verdi ki, biz öz həyatımızı bildiyimiz kimi quraq, Azərbaycan xalqının qədim ənənələri, dəyərləri əsasında dövlət quraq və bu dövlətdə rahat yaşayaq: "Bu gün dünyada gedən proseslər hər birimizin gözü önündədir. Azərbaycan sabitlik, təhlükəsizlik diyarıdır, deyə bilərəm ki, adasıdır. Bunu artıq bütün dünya görür və bilir. Əlbəttə, biz müstəqil olmasaydıq, yəni, sözün əsl mənasında, müstəqil olmasaydıq, erməni işğalına son qoya bilməzdik. Çünki bu işğalı şərtləndirən hansı amillər olub, əlbəttə ki, xarici amillər. Ermənistan özü nə hərbi, nə siyasi, nə iqtisadi cəhətdən hətta orta səviyyəli dövlət sayıla bilməz. İndi Ermənistandakı vəziyyət göz qabağındadır. Əlbəttə, biz bu xarici amilləri nəzərə almalıyıq. Amma, eyni zamanda, bu, bizi dayandıra bilməzdi. Müharibənin ilk günlərindən son gününə qədər mən demişdim ki, heç kim və heç nə bizi dayandıra bilməz. Ancaq Ermənistan rəhbərliyi bizə tarix verməlidir, nə vaxt bizim torpağımızdan rədd olur, onda biz dayanmağa hazırıq və sözümüzə də əməl etdik. Ona görə əgər müstəqil siyasət aparmasaydıq, ola bilər ki, bu xarici amillər, Ermənistanın xarici havadarları, onların bəzilərinin bizə hədə-qorxu gəlməsi bizi bu işdən çəkindirə bilərdi. Ancaq çəkindirmədi. Çünki güclü iradə göstərdik, xalqımız birləşdi və bunun da təməlində, əlbəttə ki, həmrəylik, milli qürur, ləyaqət və güc dayanır".

### "ERMƏNİLƏRİN İSTƏR QARABAĞDA, İSTƏR BAŞQA YERLƏRDƏ YAŞAMASINDA HEÇ BİR PROBLEM YOXDUR"

"Əlbəttə, bu gün postmünaqişə gündəliyinin formalaşmasında Azərbaycan öz sözünü deyir və bu söz həlledicidir. Amma bununla bərabər, biz heç bir qeyri-real tələb də irəli sürmürük. Biz deyirik ki, ərazi bütövlüyümüzü tanıyın, gəlin sərhədləri müəyyən edək, hərə öz ölkəsində yaşasın, bir-birinin işinə qarışmasın", - deyən dövlət başçısı bildirib ki, sülh müqaviləsinə əməl olunmalıdır: "Biz bunu deyirik və mənim tərəfimdən irəli sürülmüş sülh müqaviləsi üçün 5 əsas prinsipin mahiyyəti də budur. O cümlədən bir-birinə qarşı ərazi iddialarından əl çəkmək prinsipi də böyük önəm daşıyır və Ermənistan rəhbərliyi bu 5 prinsipi qəbul edib. İndi nə isə əlavə etmək istəyir, amma əsas fundamental prinsiplər budur. O ki qaldı, ermənilərin Azərbaycanda yaşamasına - istər Qarabağ bölgəsində, istər başqa yerlərdə bu məsələdə heç bir problem yoxdur".

Dövlət başçımızın dediyi kimi: "Xalqımız artıq 30 ildir ki, azad xalq kimi yaşayır və bütün əldə edilmiş nəticələr, o cümlədən şanlı Qələbəmiz bax, bunun təməlindədir, bu müstəqilliyin təməlindədir. Ona görə müstəqillik ən böyük dəyərimizdir, sərvətimizdir, qoruyuruq və əbədi qoruyacağıq. Bu gün "Böyük Qayıdış" dediyimiz prosesə start verildi. "Böyük Qayıdış"ın birinci kiçik addımı, bax, bu gün atılır".

**RƏFİQƏ KAMALQIZI**

# Prezidentdən böyük humanizm: 613 nəfər əfv edildi!



*Daim xalqının yanında olan, vətəndaşını düşünən* **LİDER!**



***Prezident İlham Əliyevin 28 may Müstəqillik Günü ərəfəsində növbəti dəfə əfv sərəncamı imzalaması Azərbaycanda həyata keçirilən uğurlu siyasət reallığında humanizm prinsiplərinin nə qədər əhəmiyyət kəsb etdiyini bir daha nümayiş etdirdi.***





Belə ki, məhkum olunmuş bir sıra şəxslərin, onların ailə üzvlərinin, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin, insan hüquqlarının müdafiəsi təşkilatlarının Azərbaycan Respublikasının Prezidentinə ünvanlanmış əfv haqqında müraciətlərinə baxılaraq, məhkumların şəxsiyyətlərini, səhhətlərini, ailə vəziyyətlərini, törətdikləri cinayətlərin xarakterlərini və ictimai təhlükəlilik dərəcəsini, cəza çəkdikləri müddəti və həmin müddətdə davranışlarını nəzərə alan, həmçinin humanizm prinsiplərinə əsaslanan, o cümlədən, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 22-ci bəndini rəhbər tutan dövlətimizin başçısı əfv sərəncamını imzaladıqdan sonra onlarla ailələrə sevinc bəxş etmiş oldu. Humanizm prinsipləri əsas götürülərək ümumilikdə 213 nəfər əfv edilib.

Belə ki, azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş 168 nəfər cəzasının çəkilməmiş hissəsindən azad edilib, 36 nəfərin cəzasının çəkilməmiş hissəsi yarıyadək azaldılıb. Eləcə də azadlıqdan məhrumetmə cəzasına şərti olaraq məhkum edilmiş 3 nəfər cəzadan azad ediliblər. Həmçinin azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş 6 nəfər cəzalarının çəkilməmiş hissəsindən azad olunublar.

### Əbəs deyil ki, artıq bu kimi əfv addımları ənənəvi xarakter alıb

Belə bir möhtəşəm bayram gündə həyatlarını həbsxanada deyil, ailələrində davam etdirəcək insanlar üçün isə bundan böyük sevinc ola bilməzdi. Bəli, Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş humanizm siyasəti və həssaslığı ilə yanaşı, həm də sübut etdi ki, o daim xalqını düşünən, xalqının yanında olan Liderdir. Əbəs deyil ki, artıq bu kimi əfv addımları ənənəvi xarakter alıb və demək olar ki, xalqımızın, dövətimizin bir sıra mötəbər günlərində məhbus ailələrinə hədsiz sevinclər bəxş edilir.

Qeyd etdiyimiz kimi, bu sərəncam birinci deyil və dövlət başçımızın bundan öncə də imzaladığı müvafiq sərəncamlar, həmçinin Prezident İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Mehriban xanım Əliyevanın təşəbbüsü ilə qəbul edilmiş amnistiya aktları on minlərlə şəxsi əhatə edib.

### Əmin olaq ki, əfv olunan vətəndaşlarımız dövlətin, şəxsən Prezident İlham Əliyevin bu kimi mötəbər, humanist addımına adekvat reaksiya verəcəklər

Bütün bunlar isə daha bir gerçəkliyi nümayiş etdirir - Azərbaycan hakimiyyətinin məqsədi heç də insanı cəzalandırmaq deyil, əksinə - qanunun aliliyini gözləməklə insanı etdiyi səhvdən çəkindirməkdir. Vaxtilə cinayət törətmiş və azadlıqdan məhrum edilmiş vətəndaş da bu qanun aliyini dərk edir və tətbiq edilən əfvdən məntiqi, doğru-dürüst nəticələr çıxarır, həyatının qalan hissəsini qanunun aliliyinə hörmət bəsləməklə yaşayır!

Bütün bu kimi həssas məqamların təhlilini apararkən həm də belə nəticəyə də gəlmək olar ki, əfv sərəncamlarının imzalanması paralel olaraq əxlaqi, mənəvi-psixoloji, ictimai faydası inkaredilməzdir. Eyni zamanda, cinayətkarlıq yolundan üz çevirərək özünü təkmilləşdirməyə çalışan və bununla başqalarına da nümunə olan insanların sayının artması cəmiyyət daxilindəki kriminogen durumun stabilliyinə, cinayətkarlığın və ümumiyyətlə, neqativ halların səviyyəsinin azaldılmasına təsir göstərən faktor kimi çıxış edir. Yəni, əfv məsələsinə baxılarkən məhkumların və onların ailə üzvlərinin müraciətləri, məhkumların səhhəti, törətdikləri cinayətlər, cəza çəkdikləri müddətdə davranışları və digər məsələlər nəzərə alınır.

Nəticə olaraq qeyd edə bilərik ki, əfv olunan vətəndaşlarımız dövlətin, şəxsən Prezident İlham Əliyevin bu kimi mötəbər, humanist addımına adekvat reaksiya verəcəklər və əmin olmaq istərdik ki, onlar bu humanist aktdan düzgün nəticə çıxaracaq, Azərbaycan dövlətinin qanunlarına əməl edərək nümunəvi vətəndaş olduqlarını əməli şəkildə isbatlayacaqlar.

AKTUAL-ANALİTİK

# YAP Veteranlar Şurasının təşkilatçılığı ilə dəyirmi masa keçirilib









***Mayın 27-də Gəncədə Yeni Azərbaycan Partiyası (YAP) Veteranlar Şurası və YAP Gəncə şəhər təşkilatının təşkilatçılığı ilə 28 May - Müstəqillik Gününə həsr edilən dəyirmi masa təşkil olunub. SİA-nın verdiyi məlumata görə, tədbir iştirakçıları əvvəlcə Şəhidlər xiyabanını ziyarət edib, sonra ulu öndər Heydər Əliyevin abidəsi önünə tər gül dəstələri düzüblər.***

Gəncə şəhər Heydər Əliyev Mərkəzində keçirilən dəyirmi masada Dövlət Himni səsləndirilib, ümummilli lider Heydər Əliyevin, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərin əziz xatirəsi yad edilib.

YAP İdarə Heyətinin üzvü, Veteranlar Şurasının sədri Arif Rəhimzadə, Veteranlar Şurasının üzvü, tarix elmləri doktoru Dilarə Seyidzadə, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, YAP Mərkəzi Aparatının şöbə müdiri Rufiz Qonaqov, Gender və gənclərlə iş şöbəsinin müdir müavini Zəkiyyə Musayeva, baş məsləhətçi Araz Xudadanov, YAP Gəncə şəhər təşkilatının sədri Ramil Orucov, Türkiyənin Gəncədəki baş konsulu Zəki Öztürk, Gəncə-Daşkəsən, Qazax-Tovuz iqtisadi rayonları üzrə partiya fəalları, tarixçi alimlər, tədqiqatçılar və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak ediblər.

YAP Veteranlar Şurasının sədri Arif Rəhimzadə tədbirin gündəliyi və nəzərdə tutulan çıxışlar barədə iştirakçıları məlumatlandırıb. İclasda çıxış edən YAP Gəncə şəhər təşkilatının sədri Ramil Orucov bu mühüm tədbirin Gəncə şəhərində keçirilməsinin əhəmiyyətindən bəhs edib.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov "Qədim Gəncə: Azərbaycan Xalq Cümhuriyyətinin ilk paytaxtı" mövzusunda çıxış edərək, Azərbaycan Xalq Cümhuriyyətinin üç ay ərzində Gəncədəki fəaliyyətinin tariximizin və dövlətçiliyimizin şanlı səhifələrinə yazıldığını deyib: "Cümhuriyyət tarixinin ən məhsuldar dövrü Gəncədə yaşanıb. Üç ay ərzində Gəncədə xalqın taleyi ilə bağlı yüzdən artıq qanun və qərar qəbul edilib, Azərbaycan dili dövlət dili elan olunub. İlk dəfə al qırmızı ay-ulduzlu bayrağımız Gəncədə ucaldılıb. Azərbaycan Milli Ordusunun təşkili sahəsində ilk addımlar da Gəncədə atılıb".

Türkiyənin Gəncədəki baş konsulu Zəki Öztürk çıxışında Azərbaycan-Türkiyə qardaşlığının əbədi və sarsılmaz olduğunu deyib. O, Gəncədə Qafqaz İslam Ordusunun qəhrəmancasına həlak olan ilk şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi üçün inşa ediləcək abidənin təməlinin qoyulmasını yüksək qiymətləndirib. Konsul Nuru paşanın rəhbərliyi ilə 1918-ci ildə Azərbaycana gələn Qafqaz İslam Ordusunun fəaliyyətindən də danışıb.

Ötən əsrin ilk illərindən başlayaraq çar Rusiyasının Azərbaycandakı milli müstəmləkəçilik siyasətini tarixi faktlar əsasında geniş şərh edən YAP Veteranlar Şurasının üzvü Dilarə Seyidzadə qeyd edib ki, 1917-ci ilin fevralında Rusiyada çarizmin devrilməsindən sonra başqa xalqlar kimi, Azərbaycan xalqının da qarşısında sosial-iqtisadi, siyasi və milli inkişaf üçün geniş imkanlar açılmışdı. Dövlət Dumasının Azərbaycandan olan deputatları Rusiyada parlamentarizmin təşəkkülündə və inkişafında iştirak edərək, parlament fəaliyyəti sahəsində böyük təcrübə qazanmışdılar. Bu təcrübə onlara bütün səylərini birləşdirərək qısa müddətdə müsəlman Şərqində ilk dəfə olaraq demokratik respublika - Azərbaycan Xalq Cümhuriyyətini yaratmağa imkan verdi.

Dilarə Seyidzadə çıxışında qeyd edib ki, 28 May Azərbaycan tarixinin əzəmətli günlərindəndir. Azərbaycan xalqının müstəqillik uğrunda mübarizəsinin mühüm dövrlərindən biri XIX əsrin sonu - XX əsrin əvvəlləridir. Bu dövrdə ölkəmizin ziyalıları bütün imkanlardan istifadə edərək Azərbaycan xalqının milli mənlik şüurunu oyanması, maariflənməsi və vətəndaşlıq hüquqları qazanması üçün mübarizəyə qalxdılar.

Professor Dilarə Seyidzadə Xalq Cümhuriyyətinin fəaliyyəti dövründə həyata keçirilən bir sıra mühüm tədbirlər, qəbul edilən qanunlar, eləcə də Cümhuriyyət qurucularının siyasi fəaliyyəti barədə ətraflı məlumat verib, həmçinin Azərbaycan Xalq Cümhuriyyətinin tam həyata keçirə bilmədiyi müstəqillik arzularının ulu öndər Heydər Əliyev və Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev tərəfindən gerçəkləşdirildiyini deyib.

Gəncə Dövlət Universitetinin Sosial fənlər kafedrasının müdiri, siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent Asim Məmmədov "Müsəlman Şərqində ilk demokratik respublika" mövzusunda məruzə ilə çıxış edib. Bildirib ki, Müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti Avropanın demokratik dəyərləri ilə Şərq mədəniyyətini üzvi şəkildə birləşdirən yeni dövlət modeli idi. Bu nümunəvi model sonralar dövlət müstəqilliyi əldə etmiş digər cümhuriyyətlər üçün də örnək oldu.

"Azərbaycan Xalq Cümhuriyyətinin siyasi varisi olan müstəqil Azərbaycan bu gün: bölgədə yeni konfiqurasiya və yeni reallıqlar" mövzusu ilə çıxış edən YAP Mərkəzi Aparatının Siyasi təhlil, maarifləndirmə və seçkilərlə əlaqədar iş şöbəsinin müdiri, siyasi elmlər üzrə fəlsəfə doktoru Rufiz Qonaqov bildirib ki, Azərbaycan tarixinin şanlı səhifələrindən olan və müasir dövlətçilik tariximizdə önəmli yer tutan Azərbaycan Xalq Cümhuriyyəti XX əsrin milli dövlətçilik ənənələrinin inkişafı baxımından mühüm əhəmiyyətə malikdir. "Xalq Cümhuriyyəti özünün dövlətçilik əsasları və demokratik islahatları ilə müsəlman şərqinin mayakı rolunu oynamağı bacardı. Ulu öndər Heydər Əliyevin 90-cı illərdə hakimiyyətə qayıdışından sonra Naxçıvanda Azərbaycanın yenidən üçrəngli bayrağı dalğalandı. Ümummilli Liderin ölkəmizə prezidentliyi dövrü, eləcə də onun layiqli davamçısı İlham Əliyevin rəhbərliyi dövründə Azərbaycan şanlı tarix yazdı. Eyni zamanda, bölgədə yeni konfiqurasiya yaratdı," - deyə R.Qonaqov əlavə edib.

Sonda çıxış edən Arif Rəhimzadə deyib ki, bu gün Heydər Əliyevin əsasını qoyduğu siyasət Prezident İlham Əliyev tərəfindən müasir dövrün tələblərinə və reallıqlarına uyğun davam etdirilir. Xalqımız bundan sonra da Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin ətrafında daha sıx birləşməlidir. Müstəqillik Gününə həsr edilən dəyirmi masa müzakirələrlə davam edib, iştirakçıların sualları cavablandırılıb.

***Bəli, bu gün Azərbaycan Xalq Cümhuriyyətinin varisi olan Azərbaycan dövləti - Qalib Sərkərdə Prezident İlham Əliyevin "Dəmir yumruq" siyasətinin gücü ilə Güclü Ordumuzun rəşadətli əsgər və zabitlərinin birliyi və qəhrəmanlığı ilə xalqımızın müstəqillik arzularını gerçəkləşdirdi. Ali Baş Komandanımız, Prezident İlham Əliyev 28 May - Müstəqillik Günü ilə bağlı paylaşımında dediyi kimi: "Azərbaycan Xalq Cümhuriyyətinin varisi olan bugünkü Azərbaycan dövləti xalqımızın müstəqillik arzularını gerçəkləşdirdi. Əminəm ki, bizim müstəqillik inkişafımız davamlı olacaq və Azərbaycanın dövlət müstəqilliyi əbədi yaşayacaq". Bəli, bu gün torpaqlarımızın işğalçı düşmənin 30 il əsarətinə Ali Baş Komandanımız, Qalib Lider, Prezident İlham Əliyevin "Dəmir Yumruq" siyasəti ilə 44 gün ərzində Müzəffər Ordumuzun rəşadətli əsgər və zabitlərinin gücü ilə Zəfər qələbəsi qazandı.***

# Müstəqillik Günün mübarək, Azərbaycan!



*İlham Əliyev: "Əminəm ki, bizim müstəqillik inkişafımız davamlı olacaq və Azərbaycanın dövlət müstəqilliyi əbədi yaşayacaq"*

### "BAŞ VERƏNLƏR BİR DAHA GÖSTƏRMİŞDİR Kİ, HƏQİQİ MÜSTƏQİLLİYİ QORUYUB SAXLAMAQ ONU ƏLDƏ ETMƏKDƏN QAT-QAT ÇƏTİNDİR"

Prezident İlham Əliyev Azərbaycan müstəqilliyin bərpasının 30-cu ildönümü münasibətilə Azərbaycan xalqına müraciətində bildirmişdir ki, 1991-ci il oktyabrın 18-də Azərbaycan XX əsrdə ikinci dəfə müstəqilliyə qovuşmaq imkanı qazanmış, "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı ilə özünün Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğunu dünyaya bəyan etmişdir: "Azərbaycan müstəqilliyinin ilk illərində çoxsaylı təhlükələrlə üzləşmiş, ağır sınaqlardan keçmişdir. Daxili çəkişmələr, dövlət idarəçiliyindəki özbaşınalıq və səriştəsizlik, ağır siyasi və iqtisadi böhran ölkəni vətəndaş müharibəsi astanasına gətirmiş, onun gələcək taleyini sual altına qoymuşdu. Məhz bu şəraitdə Azərbaycan torpaqları Ermənistan silahlı qüvvələri tərəfindən işğala məruz qalmış, yüz minlərlə soydaşımız öz dədə-baba yurdlarından didərgin düşmüşdür. Baş verənlər bir daha göstərmişdir ki, həqiqi müstəqilliyi qoruyub saxlamaq onu əldə etməkdən qat-qat çətindir".

### "BU GÜN BİZ 30 İLLİK MÜSTƏQİLLİK TARİXİMİZDƏ İLK DƏFƏ OLARAQ MÜSTƏQİLLİYİMİZİN BƏRPASININ İLDÖNÜMÜNÜ ƏRAZİ BÜTÖVLÜYÜNÜ TƏMİN ETMİŞ QALİB XALQ KİMİ QARŞILAYIRIQ"

Müraciətdə rəşadətli ordumuzun döyüş meydanında həqiqi qəhrəmanlıq və vətənpərvərlik nümayiş etdirərək cəmi 44 gündə torpaqlarımızı işğaldan qurtardığı, Ermənistanın kapitulyasiya aktını imzalaması ilə nəticələndiyi, Azərbaycanın Vətən müharibəsindəki Zəfəri regionumuzda yeni reallıqlar yaratdığı bildirilir: "Tarixi Qələbəmiz həm ölkəmizin, həm də bütövlükdə regionun inkişafında yeni dövrün başlanğıcıdır". "Mənim təşəbbüsümlə irəli sürülmüş qanun layihəsinin qəbul olunması ilə bu ildən etibarən 18 Oktyabr ölkəmizdə Müstəqilliyin Bərpası Günü kimi qeyd ediləcəkdir. Bu gün biz 30 illik müstəqillik tariximizdə ilk dəfə olaraq müstəqilliyimizin bərpasının ildönümünü ərazi bütövlüyünü təmin etmiş qalib xalq kimi qarşılayırıq. Yaxın tariximizin bu əlamətdar hadisəsi münasibətilə bütün Azərbaycan xalqını bir daha ürəkdən təbrik edir, ən xoş arzularımı yetirirəm. Müstəqilliyimiz əbədidir, dönməzdir, sarsılmazdır!"

### AXC TÜRK DÜNYASINDA İLK DÜNYƏVİ DÖVLƏT KİMİ TARİXƏ DÜŞDÜ

Şərqin ilk demokratik respublikası olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından 104 il ötür. Azərbaycan tarixinin şanlı səhifələrindən olan, xalqımızın milli azadlıq mücadiləsinin məntiqi nəticəsi sayılan və müasir dövlətçilik tariximizdə önəmli yerə malik olan və 1918-ci il mayın 28-də yaradılan Azərbaycan Xalq Cümhuriyyəti müsəlman Şərqində ilk demokratik respublika olmaqla yanaşı, xalqımızın tarixində mühüm bir hadisə idi. Belə ki, əsrlər boyu müstəqillik arzusu ilə yaşayan xalqımız nəhayət ki, öz müstəqil dövlətinə sahib oldu. Çətin beynəlxalq şəraitdə müstəqilliyini elan etmiş və hərbi köməyə böyük ehtiyacı olan Azərbaycan Xalq Cümhuriyyəti ilk addım kimi Türkiyə ilə müqavilə bağlamağı qərara almışdı. Belə ki, 1918-ci il iyunun 4-də Batumda Osmanlı Türkiyəsi ilə Azərbaycan Respublikası arasında dostluq müqaviləsinin imzalanması Azərbaycan xalqı üçün həyati əhəmiyyətli sənəd olmaqla yanaşı, Cümhuriyyət hökumətinin imzaladığı ilk dövlətlərarası müqavilə idi. İstiqlal Bəyannaməsi bütün türk-müsəlman dünyasında, ümumiyyətlə, bütün Şərqdə ilk dəfə olaraq Azərbaycanda ən demokratik respublika idarə üsulunun-parlamentli respublikanın yaradılacağından xəbər verirdi. Azərbaycan Milli Şurasının İstiqlal Bəyannaməsində göstərilirdi ki, artıq Azərbaycan xalqı hakimiyyətə malik olduğu kimi, Cənub-şərqi Zaqafqaziyanı əhatə edən Azərbaycan da tamhüquqlu müstəqil bir dövlətdir. Müstəqil Azərbaycan dövlətinin idarə forması isə Xalq Cümhuriyyətidir. Azərbaycan Xalq Cümhuriyyəti bütün millətlərlə, xüsusilə qonşu olduğu millətlər və dövlətlərlə mehriban münasibətlər yaratmaq əzmindədir: "Azərbaycan Xalq Cümhuriyyəti milliyyətindən, məzhəbindən, sinfindən, silkindən və cinsindən asılı olmayaraq öz sərhədləri daxilində yaşayan bütün vətəndaşlarına siyasi hüquqlar və vətəndaşlıq hüququ təmin edir. Azərbaycan Xalq Cümhuriyyəti öz ərazisi daxilində yaşayan bütün millətlərin sərbəst inkişafı üçün geniş imkanlar yaradır. Müəssislər Məclisi toplanıncaya qədər Azərbaycanın başında xalqın seçdiyi Milli Şura və Milli Şura qarşısında məsuliyyət daşıyan Müvəqqəti hökumət durur".

23 ay mövcud olmasına baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti böyük dövlətçilik tarixinə sahib olan Azərbaycanın həyatında mühüm rola malik oldu. 1918-ci ilin 28 Mayında yaradılan AXC Türk dünyasında ilk dünyəvi dövlət kimi tarixə düşdü. Cəmi 23 ay yaşayan Cümhuriyyət dövlət quruculuğu sahəsində mühüm qərarları ilə yadda qaldı. 1918-ci il iyunun 26-da Xalq Cümhuriyyətinin hökuməti Azərbaycanın ilk Milli Ordu hissəsinin - əlahiddə diviziyanın yaradılması barədə qərar qəbul etdi. Həmin dövrdə Cümhuriyyət hökumətinin tabeliyində olan hərbi qüvvələr türk (Osmanlı) ordu hissələri ("Qafqaz İslam Ordusu") ilə birlikdə Nuru paşanın komandanlığı altında "Bakı Kommunası"nın qoşunları ilə qızğın döyüşlər aparırdı. Cümhuriyyətin Hərbi Nazirliyinin təşkili barədə qərar bir qədər sonra - avqustun 1-də verildi. Nazirlik özü isə 1918-ci ilin dekabrında fəaliyyətə başladı. Keçmiş çar Rusiyası ordusunun generallarından Səməd bəy Mehmandarov hərbi nazir, Əliağa Şıxlinski hərbi nazirin müavini təyin edildilər. Həmin ayın 27-də isə Azərbaycanın tarixində ilk dəfə olaraq Azərbaycan dilinin dövlət dili elan edilməsi haqqında qərar qəbul olundu. 2 iyul 1918-ci il tarixdə isə Xalq Cümhuriyyəti Nazirlər Şurasının sədri və daxili işlər naziri Fətəli xan Xoyski ölkədə ilk polis bölümünün yaradılması barədə əmr verdi. Bununla da Azərbaycan polis orqanlarının əsası qoyuldu. 1918-ci il noyabrın 9-da Azərbaycanın indiki üçrəngli dövlət bayrağı qəbul edildi. Eyni zamanda, Azərbaycan vətəndaşları haqqında qanun da qəbul olundu.

Azərbaycan Xalq Cümhuriyyəti mövcud olduğu 23 ayda həm də xalqımızı dünyaya tanıtmaqla mühüm bir tarixi missiyanı yerinə yetirmiş oldu. Bu mənada, yürüdülən xarici siyasətinin ən önəmli uğurlarından biri kimi Versal Ali Şurası tərəfindən 1920-ci ilin yanvarında Azərbaycanın de-fakto müstəqil dövlət kimi tanınmasına nail olunması xüsusi qeyd edilməlidir. Artıq 1919-cu ilin sonlarında Azərbaycan Xalq Cümhuriyyəti 20-dən çox ölkə ilə diplomatik əlaqələr yaratmışdı.

Bütün bunlara baxmayaraq, Azərbaycan daha bir işğal faktı ilə üz-üzə qaldı. 27 aprel 1920-ci il tarixdə bolşevik Rusiyasının XI Ordusu Bakıya daxil oldu. Bu vaxt Xalq Cümhuriyyətinin ordu hissələri Qarabağda və Gəncəbasarda qiyamçı erməni qüvvələri ilə döyüşdə idi, azsaylı sərhəd qoşunları isə rus ordusuna müqavimət göstərə bilməmişdi. Bolşevik rəhbərliyi - Azərbaycan K(b)P MK və Rusiya K(b)P Qafqaz Diyar Komitəsinin Bakı Bürosu hakimiyyəti təhvil vermək barədə Xalq Cümhuriyyətinin parlamentinə ultimatum verdi. Meydana çıxmış situasiyanı dəyərləndirən parlament gərgin müzakirələrdən sonra ultimatumla razılaşdı və hakimiyyətin kommunistlərə verilməsi barədə qərar qəbul edildi. Parlamentin qərarında Azərbaycanın istiqlaliyyətinin və ərazi bütövlüyünün qorunması, Milli Ordunun saxlanılması, siyasi partiyalara fəaliyyət azadlığı, Cümhuriyyətin dövlət xadimlərinə təqiblərin olmaması barədə şərtlər yer almışdı. Lakin bolşeviklər sonradan bu şərtlərin heç birinə əməl etmədi. Beləliklə, Azərbaycan Xalq Cümhuriyyəti Sovet Rusiyasının hərbi təcavüzü nəticəsində 1920-ci ilin aprel ayının 28-də süqut etdi.

### ULU ÖNDƏR HEYDƏR ƏLİYEV: "ƏN ƏSASI ODUR Kİ, AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ AZ YAŞASA DA, XALQIMIZDA AZADLIQ, MÜSTƏQİLLİK FİKİRLƏRİNİ DAHA DA GÜCLƏNDİRMİŞ OLDU"

Tarix hər zaman ədalətin gec də olsa, bərpa olunması ilə təkrarlanıb. XX əsrin əvvəlində xalqımız qarşısında tarixi əhəmiyyət kəsb edəcək işlər görməyi qarşısına məqsəd qoyan Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan 71 il sonra xalqımız bir daha müstəqillik əldə etdi. Məlum olduğu kimi, 1991-ci il oktyabrın 18-də qəbul olunan Konstitusiya Aktında Azərbaycan Respublikasının AXC-nin siyasi varisi olması elan olundu. Bəzən "tarix təkrar olunur" deyirlər və 1993-cü ildə də tarixin təkrar olunmaması, müstəqilliyin itirilməməsi üçün xalqımız Ulu Öndər Heydər Əliyevi Azərbaycanda siyasi hakimiyyətə yenidən qayıdışı və Onun müəyyənləşdirdiyi strateji kurs sayəsində siyasi, hüquqi, iqtisadi, sosial, mədəni, ideoloji və digər sahələrdə əldə edilən nailiyyətlər Azərbaycanı müasir, müstəqil və güclü milli dövlətə çevirdi. Müasir, müstəqil dövlət kimi çıxış edən ölkəmiz özünün tərəqqisi ilə milli inkişafın Azərbaycan modelinin əsasını qoydu. Ümummilli Lider Heydər Əliyev hər zaman Azərbaycan Xalq Cümhuriyyətinin ölkəmizin müstəqillik tarixində mühüm yerə malik olduğunu bildirirdi. Ulu Öndər, həmçinin, bəyan edib ki, AXC-nin qısa müddətdə həyata keçirdiyi tədbirlər xalqımızın tarixində silinməz iz buraxıb, milli dövlətçilik ənənələrimizin bərpası işində böyük rol oynayıb: "Ən əsası odur ki, Azərbaycan Xalq Cümhuriyyəti az yaşasa da, xalqımızda azadlıq, müstəqillik fikirlərini daha da gücləndirmiş oldu".

Əsası ümummilli lider tərəfindən qoyulmuş və hazırda cənab Prezident İlham Əliyev tərəfindən uğurlu həyata keçirilən xarici siyasət strategiyası dövlətlərarası əlaqələrə daha yaxından qatılaraq regionda, eləcə də dünyada baş verən əsas iqtisadi, siyasi və mədəni proseslərdə Azərbaycan dövləti layiqincə təmsil olunur, öz mövqeyini bildirərək mənafelərini qoruyur. Ölkə daxilində gedən demokratik proseslər və iqtisadi yüksəlişlə yanaşı, uğurlu xarici siyasət bu gün dünyanın aparıcı dövlətlərinin, nüfuzlu beynəlxalq təşkilatların diqqətini Azərbaycana yönəltmiş və bu da beynəlxalq hüquq normalarına uyğun qarşılıqlı faydalı əməkdaşlığın yaranmasına və inkişafına əlverişli zəmin yaratmışdır. Bu gün ümummilli lider Heydər Əliyevin xarici siyasət kursunu novatorcasına, dinamik şəkildə və çox uğurla davam etdirən Prezident İlham Əliyev çıxışlarında AXC-nin Azərbaycan xalqı üçün tarixi hadisə olduğunu bildirmişdir: "Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması tarixi hadisə idi. Xalqımız üçün tarixi hadisə idi. Ona görə ki, Azərbaycan xalqı əsrlər boyu arzuladığı müstəqilliyə qovuşurdu".

Ali Baş Komandanımız Prezident İlham Əliyev cənablarının 28 May - Respublika Günü ilə bağlı paylaşımında dediyi kimi: "Azərbaycan Xalq Cümhuriyyətinin varisi olan bugünkü Azərbaycan dövləti xalqımızın müstəqillik arzularını gerçəkləşdirdi. Əminəm ki, bizim müstəqillik inkişafımız davamlı olacaq və Azərbaycanın dövlət müstəqilliyi əbədi yaşayacaq". Müstəqillik Günün mübarək, Azərbaycan! Qarabağ Azərbaycandır!

***RƏFİQƏ KAMALQIZI***

# "Fondun gördüyü işlər xalqımız tərəfindən yüksək qiymətləndirilir"

**"Azərbaycanda ölkə rəhbəri cənab Prezident İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli siyasət ölkənin hərtərəfli inkişafında öz töhfələrini verməkdədir və Azərbaycan dünyanın sayılıb-seçilən ölkələrindən birinə çevrilib". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputat Vüqar İsgəndərov bildirib.**

Onun sözlərinə görə, artıq Azərbaycanın səsi dünyanın bir çox ölkələrindən gəlir: "Qlobal miqyaslı məsələlərin həllində ölkə Prezidentinin fikirləri, təklifləri nəzərə alınır. Bu onu deməyə əsas verir ki, Azərbaycanda daxili və xarici siyasət uğurla həyata keçirilir. Bu siyasətə, bu məsələlərə dəstək verən təşkilatlardan biri heç şübhəsiz Heydər Əliyev Fondudur. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi altında Fond yarandığı gündən etibarən bir çox həm ölkə daxili, həm də beynəlxalq səviyyədə Azərbaycanın müsbət imicinin formalaşmasında böyük rol oynamışdır. Mehriban xanım Əliyevin rəhbərliyi altında Fond saysız-hesabsız məktəblərin, uşaq evlərinin, baxçaların, parkların tikintisinə, yenidən qurulmasına göstərişlər vermiş, şəhid ailələrinin və qazilərin şəraitinin yaxşılaşdırılması üçün bir sıra vacib qərarlar qəbul etmişdir. Artıq insanlar Mehriban xanım Əliyevaya və Heydər Əliyev Fonduna bir ümid yeri kimi baxır. Bu günə qədər Fond həm ölkəmizdə, həm də xaricdə, Avropada, Asiyada, Amerikada, Afrikada çoxsaylı xeyriyyə tədbirləri təşkil etmişdir. Mehriban xanım UNESCO və İSESCO-nun xoşəramlı səfiri kimi beynəlxalq humanitar dəyərlərə böyük hörmət edən və onun inkişafı üçün əlindən gələni əsirgəməyən bir siyasətçi, bir insan obrazı yaratmışdır.

Fond müharibə iştirakçıları, qazilər, şəhid ailələri, onların problemləri və digər qayğıları ilə yorulmadan maraqlanır və onlara xüsusi diqqət göstərirlər. İşğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzurda böyük quruculuq işləri davam edir. Bu gün Şuşanın və digər şəhərlərin, kəndlərin bərpası kimi ümummilli məsələlərə dövlətlə yanaşı Fond da xüsusi diqqət ayırır. Bu bölgədə görülən işlərə ümumi nəzarəti Heydər Əliyev Fondu həyata keçirir. Fondun gördüyü işlər xalqımız tərəfindən də yüksək qiymətləndirilir.

Fond həm də ictimai nəzarət xidmətini də həyata keçirir. Biz inamla deyə bilərik ki, Ümummilli lider Heydər Əliyevin adını daşıyan bu Fond, həmçinin Mehriban xanım Əliyeva Azərbaycan üçün, dövlətimizin hərtərəfli inkişafı üçün bir sıra vacib tədbirlər həyata keçirib. Bu gün artıq müzəffər, qalib xalqın Qarabağda və Şərqi Zəngəzurda gördüyü işlər onu göstərir ki, Azərbaycanda qeyri-hökümət təşkilatları, cəmiyyətlər, icmalar bir yumruq olaraq birləşib bu inkişafı daha da irəliyə aparır".

*Abutel İlhamqızı*

# Zəngəzur dəhlizinin açılması Ankara-Bakı ittifaqına nə vəd edir?

**Türk-İslam Araşdırmaları Mərkəzinin sədri, Xəzər Universitetinin müəllimi Telman Nüsrətoğlunun "Zəngəzur dəhlizinin açılması Ankara-Bakı ittifaqına nə vəd edir?" başlıqlı yazısı... SİA bu barədə Türkiyə saytlarına istinad edir.**

22 mayda Avropa İttifaqının rəhbəri Ş.Mişelin təşəbbüsüylə Brüsseldə Azərbaycan Prezidenti İ.Əliyevlə Ermənistan Baş naziri N.Paşinyan arasında növbəti görüş keçirilmişdir. Görüşdən dərhal sonra iki Cənubi Qafqaz ölkəsi arasında qalıcı sülhün əldə edilməsi, sərhədlərin demarkasiyasının həyata keçirilməsinin təmin edilməsi məqsədiylə hər iki hökümət tərəfindən yaradılan komisyaların tərkibinin təsdiq edilməsi, Prezident İ. Əliyevin Türkiyə Prezidenti R.T.Ərdoğanla görüşün nəticələrini müzakirə edərkən Zəngəzur dəhlizinin açılmasıyla bağlı razılığa gəlindiyini bəyan etməsi, sülh prosesinin müsbət məcrada davam etdiyini göstərir.



Daha əvvəlki yazılarımızda XX əsrin əvvəllərində tarixi Türk torpağı olan Zəngəzur vilayətinin böyük bir qisminin bolşeviklər tərəfindən Azərbaycandan qoparılaraq Ermənistana hədiyyə edildiyini, beləliklə də bir imperialist proyekt çərçivəsində Türkiyə ilə Azərbaycan arasındakı quru bağlantısının kəsildiyini qeyd etmişdik. Ermənistan tərəfindən işğal edilən Azərbaycan torpaqlarının azad edilməsiylə nəticələnən 44 günlük Qarabağ müharibəsinin sonlarında imzalanan 10 Noyabr müqaviləsinin ən önəmli maddələrindən biri də şübhəsiz Zəngəzur dəhlizinin açılmasıyla bağlı idi.

Rusiyanın Ukrayna torpaqlarını işğal etmə təşəbbüsü kollektiv Qərblə Rusiya arasındakı qarşıdurmanı daha da kəskinləşdirmiş, Çin - Avropa ölkələri arasında ticarəti təmin edən Rusiyadan keçən Trans-Sibir və ya Şimal yolunun əhəmmiyət və istifadəsinin azalmasıyla birlikdə dəmir İpəkyolu və ya Orta Yolun kritik önəmi bir daha ortaya çıxmışdır. Nazarbayevin Turan keçidi adlandırdığı Trans-Xəzər dəhlizi və Türk dövlətləri arasında getdikcə dərinləşən əməkdaşlıq iqlimiylə birlikdə düşündüyümüzdə qlobal və regional əməkdaşlıqlar, ticarətin yenidən canlandırılması baxımından Zəngəzur dəhlizinin açılması daha da aktual hala gəlmişdir. Nəhayət Ermənistanın dəhlizin açılmasına razılıq verməsini Bakı-Tiflis-Qars dəmiryolu, Ankara - Tiflis - Bakı xəttində çoxdan formalaşan geosiyasi müttəfiqlik münasibətləri, Azərbaycanın İranla da imzaladığı müqavilədə nəzərdə tutulan cənubi Zəngəzur yoluyla birlikdə əldə aldığımızda Orta Yol və ya yeni İpəkyolunun Şimal yoluyla müqayisədə böhranlara qarşı daha dayanıqlı bir yol halına gəldiyini görürük. Nəqliyyat məsrəfləri və yükün alıcıya çatdırılma müddətinin qısaldılması baxımından da Orta Yol çox daha əlverişlidir. Zəngəzur dəhlizinin açılması regional təhlükəsizlik və rifahın əldə edilməsinə ciddi töhfə verəcəyi kimi Türk dövlətlərinin, xüsusiylə Türkiyə və Azərbaycanın dünya dəngələri baxımından strateji rolunu da artıracaqdır. Türkiyənin mərkəz ölkə olması, Çin-Avropa ticari münasibətlərində vacib bir yerə yüksəlməsi, Çin-Türkiyə münasibətlərinə yeni bir çaların əlavə edilməsi də bu dəhlizin açılmasıyla təsdiqlənəcəkdir. Zəngəzur dəhlizinin açılması Ermənistana da təcritdən qurtulmaq, Rusiyanın for-postu olmaqdan çıxaraq daha müstəqil siyasət aparmaq, Qərblə yaxınlaşmaq, əhalisinin həyat səviyyəsini yüksəltmək imkanı təmin edəcəkdir. Bunun üçün əlbəttə bütün daxili müqavimətə, müxalif-revanşist dairələrin əngəlləmələrinə rəğmən Paşinyan iqtidarının sülhün əldə edilməsi istiqamətində səylərinə davam etməsi, Azərbaycanın ərazi bütövlüyünü tanıması şərtdir.

# Vitali Arkov: Ermənistan müxalifəti və hakimiyyəti bir ələ oynayır

***Ermənistanda "Qarabağ klanı" hakimiyyətə qayıtmaq istəyir. Mən getdikcə daha çox əmin oluram ki, 2020-ci ilin payızında baş verənlər Ermənistanın eks-prezidenti Robert Köçəryan və onun tərəfdaşları üçün çox faydalıdır, bu hadisələr onların dövründə deyil, Paşinyanın dövründə baş verib.***



Onlar üçün bu yolla Qarabağ münaqişəsinin doğurduğu bütün problemləri (və onun həll olunmaması gec-tez partlayışa səbəb olmalı idi) Paşinyanın üzərinə yıxmaq mümkün oldu. O, Ermənistanda hamı üçün çirkin işlər görən adama çevrildi. Bu isə həqiqətən çirkin işdir, çünki erməni əhalisi arasında hələ də revanşist əhval-ruhiyyə hökm sürür. Üstəlik, onilliklər ərzində "Qarabağ bizimdir" fikri xalqı daha da alovlandırıb, qızışdırıb. Bu sözləri PolitRUS portalının rəhbəri, politoloq Vitali Arkov Moskva-Baku portalına verdiyi müsahibəsində deyib.

Ekspert bildirib ki, Ermənistanda bir neçə aydır müşahidə etdiyimiz etiraz aksiyaları Nikol Paşinyanın özünün də əlində oynayır. Çünki Paşinyan bu halda deyə bilər: "Yaxşı, küçədə bu hadisələr baş verəndə mən necə nəyəsə imza atım". Əgər müxalifət həqiqətən də Paşinyanı devirmək istəsəydi, bunu çoxdan edərdi. Amma belə deyil. Və görünür, bir oyun var. Müxalifətin işi çox səs-küy salmaq, açıqlamalar verməkdir. Ancaq hakimiyyəti devirmək kimi qəti hərəkətlər yoxdur.

İrəvan son aylarda Qarabağın statusu ilə bağlı ifadələri açıq şəkildə yumşaldıb. Paşinyan nə olursa olsun, kimin marioneti olursa olsun, onun ölkədəki mövqeyi ictimai rəydən asılıdır. Və bunu nəzərə almalıdır. Ermənistanda Azərbaycanla sülhün tərəfdarı olan həm revanşistlər, həm də əhalinin həssas hissəsi var. Müxalifət xalqın, oğullarını müharibədə itirmiş anaların duyğularından istifadə edir, vətənpərvərlik hisslərindən, əslində isə bütün bu illər ərzində insanlara hopdurulan millətçilik ideyalarından istifadə edir.

Mitinqə gedən adamlara pul verilir. Onlar üçün bu, sabit gəlirdir. Başqa bir şey budur ki, bütün bu etirazlar sülh prosesinə mane olur. Hesab edirəm ki, bu yolla onlar, Paşinyan da daxil olmaqla, sülh prosesində Ermənistan üçün nəsə sövdələşməyə çalışır".

Politoloq deyib ki, bundan əlavə, bu gün biz Rusiya ilə Qərb arasında kəskin qarşıdurmanın şahidi oluruq: "ABŞ və Fransa Cənubi Qafqaza oyunçu kimi qayıtmaq istəyirlər, halbuki öz günahları səbəbindən 2020-ci ilin payızında regiondan çıxdılar. Baxmayaraq ki, bundan əvvəl onlar ATƏT-in Minsk Qrupunun üzvü statusundan istifadə edirdilər. Amma bu gün Minsk qrupu ölüb.

Qərbdən bu gün çox söz, az iş görürük. Bəli, Azərbaycan və Ermənistan istənilən platformada - Moskvada, Brüsseldə, istənilən yerdə görüşməlidir, çünki birbaşa dialoq həmişə faydalıdır. Brüsseldəki görüşlər Bakıdan Aİ-yə göstərilən bir hörmətdir. Bakı öz problemlərini həll etməyə çalışır. Əgər Əliyev Brüssel platformasından imtina etsə, o zaman Qərb ölkələri ona həyasızcasına baxacaqlar, amma buna ehtiyac yoxdur. Azərbaycanın Avropa ilə kifayət qədər sıx iqtisadi əlaqələri var, ona görə də o, Qərb tərəfdaşları ilə görüşə və onlara gülümsəyə bilər. Amma başa düşür ki, Qarabağ məsələsi Qərbdə qətiyyən həll olunmur. Bu belə diplomatiyadır. Əliyev təcrübəli, müdrik diplomatdır, qərb platformasından başqa məqsədlər üçün istifadə edir. İstisna etmirəm ki, danışıqlar paralel şəkildə, pərdə arxasında, o cümlədən Ermənistanla münasibətlərə aid olmayan digər məsələlərlə bağlı aparılır".

Vitali Arkov hesab edir ki, indiki vəziyyətdə Ermənistan-Azərbaycan nizamlanması çərçivəsində paket şəklində deyil, mərhələli şəkildə davam etmək lazımdır, çünki hələ də çoxlu mübahisəli məsələlər qalır. Xüsusən də birinci mərhələ, ilkin olaraq Moskvanın nizamlanmanın fundamental əsası kimi təklif etdiyi kimi, nəqliyyat və iqtisadi əlaqələrin blokunun açılmasıdır. Bu baxımdan, bu gün Moskvanın Şimal-Cənub dəhlizinə ciddi diqqət yetirdiyi göz qabağındadır - bu yaxınlara qədər olduğundan daha çox, çünki bu, Qərbin sanksiyaları və "Avropaya pəncərənin bağlanması" şəraitində işləyə biləcək əsas marşrutlardan biridir. Bu dəhlizin qollarından biri Ermənistan ərazisindən keçir. İran Ermənistan vasitəsilə Gürcüstana mal çatdırmaq istəyir. Sadəcə Zəngəzur dəhlizi ilə kəsişir. Azərbaycanın və Türkiyənin də maraqları var. Ona görə də, məncə, ilk növbədə, nəqliyyat və iqtisadi əlaqələrin həllini əsas götürmək məntiqli olardı. Üstəlik, Rusiya, Azərbaycan, Türkiyə bu sahənin inkişafına sərmayə qoymağa hazırdır. Ermənistan əslində də nəticədən ancaq qazanc götürəcək".

*Tərcümə - Elçin Bayramlı*

# “Festival Ermənistana ötürülən bir mesaj deyil, həm də..."




“Teknofest” yeni müasir texnikaların festivalı olmaqla bərabər, həm də müasir döyüş texnikasının sərgiləndiyi bir festivaldır”. Bu sözləri SİA-ya açıqlamasında politoloq Fərhad Mehdiyev deyib.

Onun sözlərinə görə, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın bu festivalda iştirak etməsi onun bir daha Şuşa bəyannaməsində göstərildiyi kimi Azərbaycanın yanında yaxşı bir hərbi müttəfiq olduğunu və hər hansı bir hərbi əməliyyatlar aparılması halında Türkiyənin də eyni şəkildə Azərbaycanın yanında olacağını göstərir: ""Bayraktar" dronlarından başqa, burada eyni zamanda çox uzaq məsafədən uça bilən "Akıncı" dronları da bu festivalda yer alıb”.

Politoloq sözlərinə belə davam edib: "Bunlardan başqa Türkiyənin F-16-larını neçə gündür Azərbaycan səmalarında görürük. Bu Türkiyənin qətiyyətli şəkildə hər hansı bir hərbi münaqişə zamanında Azərbaycanın yanında yer alacağını göstərir. Bu təkcə Ermənistana ötürülən bir mesaj deyil, bunu həm də Rusiya-Ukrayna müharibəsi zəminində düzgün qiymətləndirmək olar”.

*Ayşən Vəli*

# “Ölkəmizin çox önəmli hadisələr yaşadığı dövrdə eyni cəhdləri müşahidə edirik”

“Azərbaycanın daxili-siyasi gündəminin zəngin və dövlətçilik siyasətinə uyğun formada cərəyan etdiyi dövrlərdə ölkəmiz üçün kənardan müəyyən maraqlı qüvvələr tərəfindən süni gündəm yaratmaq cəhdlərinə dəfələrlə rast gəlmişik. Son 15 illik tarixin daxili siyasətimizdə baş verən bəzi önəmli hadisələrini yada salmaq bunun üçün kifayətdir. Məsələn, "Avropa oyunları", "İslam oyunları" və digər ölkəmizin dünyada sınaq qarşısında olması kimi xarakterizə olunan tədbirlər zamanı cəmiyyətin nəzərini bu hadisələrdən yayındırmaq üçün kənardan müxtəlif mövzuları gündəmə atmaq cəhdləri olub”. Bu sözləri SİA-ya açıqlamasında siyasi şərhçi Aydın Quliyev deyib.




Onun sözlərinə görə, bu gün də ölkəmizin çox önəmli hadisələr yaşadığı dövrdə eyni cəhdləri müşahidə edirik: "Bəllidir ki, ölkəmiz müstəqilliyin yeni bir ildönümünü qeyd edir. Həmçinin, "Texnofest" kimi Azərbaycan və Türkiyənin dünyada birliyini nümayiş etdirən böyük bir tədbirin içərisindəyik. Bundan başqa Azərbaycan-Ermənistan normallaşma prosesi ilə bağlı diplomatiyamızın əldə etdiyi işlərin təhlili, cəmiyyətə çatdırılması və dünyaya qəbul etdirilməsi yönündə böyük işlər gedir.Bunların hər biri ciddi məsələlərdir və təkcə dövlətin gücü ilə yox, dövlətin gücünün aparıcılığı şəraitində cəmiyyətin böyük dəstəyi şərti ilə irəliləyir. Belə saxta gündəm yaratmaq cəhdləri əsas bir neçə məqsədə xidmət edir”.

Aydın Quliyev sözlərinə belə davam edib: "Belə şəraitdə Azərbaycanda əslində siyasi və dövlət siyasəti baxımından kökü-əsası olmayan hadisələri ortaya atmaq istəyirlər. Bunlar ölkədə guya referendumun və ya hansısa fövqəladə seçkinin keçirilməsi ilə bağlı gündəm yaratmaq cəhdləridir. Aydın məsələdir ki, ölkə nə vaxtsa referenduma da gedə, seçki də keçirə bilər. Amma Azərbaycan tam konstitution əsaslarda idarəçiliyi dövlət siyasətinə çevirmiş ölkə olaraq bütün tədbirlərin qanuni və konstitusiya əsaslarına malik olmasına önəm verir. Saxta siyasi gündəm yaratmaq cəhdləri dövlətimizin mənafeyi ilə uzlaşmayan qeyri-sağlam qüvvələrin əməlləridir”.

*Ayşən Vəli*

# Rusiya olmasaydı...

## Yaxud “şimal ayısı” Cənubi Qafqazdan nə istəyir?

***Şimal qonşumuz, 300 illik tarix ərzində adı təkcə Azərbaycanda yox, bütün Qafqazda istilaçı ölkə kimi tanınan, müxtəlif formasiyalarda, dövlət quruluşlarında öz imperiyasına daxil etdiyi ölkələrdə yerli xalqlara qarşı müstəmləkə siyasətini dəyişməyən Rusiyanın torpaq, ərazi ələ keçirmək iddiasının, həvəsinin arxasında nələrin dayandığını söyləmək də artıqdır. Hərdən düşünürsən, görəsən Rusiya Qafqazda olmasaydı, nə baş verərdi? Bu suala qısaca belə cavab verə bilərik: Hər şey indikindən fərqli olardı. Yenə haqlı sual doğur, necə? Gəlin tarixin səhifələrini vərəqləyək.***



Mənbələrdən oxuyuruq, Rusiya İmperiyası 1721-ci ildə Şimal müharibəsinin sona çatmasından 1917-ci il Fevral inqilabı nəticəsində hakimiyyətə gələn müvəqqəti hökumət tərəfindən Respublika qurulana qədər Avrasiya və Şimali Amerika boyunca mövcud olmuş imperiyadır. Dünya tarixində üçüncü böyük imperiya olmaqla, üç qitə boyunca uzanan Rus İmperiyası ərazi ölçüsünə görə yalnız Britaniya və Monqol İmperiyasından geri qalırdı. Rusiya imperiyasının yüksəlişi rəqib qonşularının - İsveç, Reç Pospolita, İran və Osmanlı imperiyalarının zəifləməsi sayəsində baş verdi. Rusiya İmperiyasını 1721-ci ildən 1762-ci ilə qədər Romanovlar ailəsi, 1762-ci ildən sonra bu ailənin alman əsilli qolu Holşteyn-Qottorp ailəsi idarə edirdi. XIX əsrin əvvəllərində Rusiya İmperiyası şimaldan Şimal Buzlu okeandan cənubda Qara dənizə, qərbdən Baltik dənizindən şərqdə Sakit okeana və 1867-ci ilə qədər Amerikada Alyaskaya qədər uzanırdı. Çar Böyük Pyotr (1682-1725) çoxsaylı müharibələr aparmış və onsuz da böyük olan imperiyanı daha da böyüdərək Avropanın əsas güclərindən birinə çevirmişdir.

Rusiyanın ilk imperatoru I Pyotrun hakimiyyəti zamanı şimal qonşumuzla Osmanlı və Qacarlar və Afşarlar arasında gedən müharibələrdən hər ötən gün bu ölkənin iştahasını bir az da artırıb. Rusiya imperiyası öz sərhədlərinin isti dənizlərə qədər uzatmaq niyyəti ilə cənub qonşuları ilə uzunmüddətli müharibələrdən çəkinməyib. Qafqazı və Qafqazın cənub hissəsini Osmanlı və Qacar dövlətlərindən zorla qopara bilib. Azərbaycan da qoparılan ən böyük tikələrdən biri olub.

Çar Rusiyası dövründə imperiyanın ucqarları sayılan bu ərazilərlə bağlı siyasət bolşeviklərin hakimiyyəti ələ keçirməsindən sonra da davam edib. Sadəcə forma dəyişib, mahiyyət isə eyni olub. Yeni yaranmış sovet hakimiyyətinin tərkibinə qatılan respublikalar kağız üzərində müstəqil, eyni hüquqlu olsalar da, imperiya siyasəti yürüdən proletariat diktaturasının paytaxtı sayılan Moskvanın icazəsi və razılığı olmadan bir addım belə ata bilməyiblər. SSRİ-nin əsas istehsal sahələri əsasən "qardaş respublikalar"da yox, Rusiya ərazisində inşa edilib. Burada da məqsəd konkret olaraq Rusiyanın inkişafına hesablanıb. Qalan respublikalar Rusiya üçün yalnız təhlükəsizlik kəməri rolunu oynayıb. Qeyd edək ki, II dünya müharibəsindən sonra SSRİ, əslində isə Rusiyanın öz təsir dairəsində saxladığı və "Hitler faşizmindən xilas etdiyi" Varşava müqaviləsi üzvü olan keçmiş sosialist ölkələr də Qərblə Rusiya arasında "bufer zona", "minalanmış neytral ərazi" kimi qəbul edilirdi. Bu, bir həqiqətdir ki, adıçəkilən ölkələr və müttəfiq "qardaş" respublikalar məhz Qərbdən - NATO-da müdafiə üçün Rusiyaya lazım idi.

Bu gün də oxşar hadisələr baş verir. Sadəcə, görüntü dəyişib. Rusiya Cənubi Qafqaz ölkələrinə münasibətində yeni-köhnə siyasətini davam etdirir. Hər üç ölkənin 30 illik müstəqillik tarixinə, dünyanın bir subyektibə çevrilmələrinə, BMT-də müstəqil ölkə olaraq təmsil olunmalarına baxmayaraq hələ də bu ölkələrlə eynihüquqlu münasibətlər qurmaqda çətinik çəkir. Əksinə, Rusiya qonşuları ilə səmimi dost münasibətlərində olsa, qarşılıqlı hörmət əsasında əlaqələr qursa bəlkə də Qərb ölkələrinin indiki sanksiyaları ilə üzləşməz, onu dəstəkləyənlərin sayı indiki qədər olmazdı. Rusiyanın müstəqil ekspertlərinin əksəriyyəti kimi bu ölkədə daha çox hakimiyyətə müxalif mövqeyi ilə seçilən Aleksey Navalnıy maraqlı və məntiqli çıxışı ilə yadda qalıb. O, Rusiyanın bu gün tək qalmasının səbəblərini açıqlamaqla yanaşı, ölkəsinin düşdüyü vəziyyəti belə təsvir edib: "Rusiyanın qonşularından heç biri ilə səmimi dostluq münasibətləri yoxdur. Kimsə Belarusun adını çəkə bilər, xeyr, Minsk istənilən vaxt Rusiya ilə yollarını ayıra bilər. Bu dostluq yalnız müəyyən maraqlar üzərində qurulub. Əslində isə məsələ başqadır. Rusiyaya "dişini" göstərənlər əvvəlcə keçmiş Bribaltika ölkələri oldu, bunun ardınca Gürcüstan və Moldova, bu gün isə Ukrayna Rusiyanın dostları sırasından düşmənlərinin səfinə keçib. Digər ölkələrində münasibəti fərqli deyil. Ətrafınıza baxın, dostlarınız nə qədərdir?".

Sovetlərin dağılmasından sonra özünü SSRİ-nin qanuni varisi hesab edən Rusiya nəinki sərhədlərinə yaxın əraziləri, eləcə də Avrasiya qitəsinin xeyli uzaq regionlarını da özünün strateji maraq dairəsi bilir. Hətta dünyada baş verən hadisələrə ciddi surətdə müdaxilə etməyə cəhd göstərir. Gücü kifayət qədər olmayan Rusiyanın bu siyasətinin bir səbəbi var ki, o da imperiya təfəkkürünü hələ də özündə saxlamasıdır, daha doğrusu ara-sıra imperiya dövləti olduğunu yada salmasıdır. BMT Təhlükəsizlik Şurasının beş daimi üzvündən biri kimi, qlobal sülh və təhlükəsizlik üçün birbaşa məsuliyyət daşıyan Rusiyadan başqa addım da gözləmək olmaz. Bu cür möhtəşəm geosiyasi mövqelərə malik olmaqla yanaşı, iqtisadi-maliyyə imkanları, inkişaf tempi, valyuta ehtiyatları kimi parametrlər baxımından Rusiya dünyadakı rəqiblərindən - ABŞ, Avropa Birliyi, Çin kimi güc mərkəzlərindən xeyli geridə qalır. Qüvvələr balansı da Rusiyanın xeyrinə deyil. Müəyyən tarazlığa nail olmaq məqsədilə Rusiya öz hərbi qüvvələrini təkmilləşdirir, hərbi-sənaye komleksini gücləndirir ki, "əzələ" nümayiş etdirməyə təpəri olsun. NATO-nun Şərqə doğru genişlənmək cəhdlərinə dirəniş göstərməyə cəhd edir, lakin bu, hələ də uğursuz alınır. Maraqları naminə qonşuları və tərəfdaşları ilə də zor dili ilə danışmaqdan çəkinmir. Bu, təkcə indiki iqtidarla bağlı məsələ deyil, əslində hakimiyyətdə kimin olmasından asılı olmayaraq, bu dövlətin strateji maraqları dəyişmir. Rusiyanın bir sıra siyasi dairələri əksər hallarda postsovet məkanına özünün itirilmiş mülkləri kimi baxırlar. Indi müstəqil ölkə olan keçmiş "qardaş respublikalar"ı yenidən öz nüfuz dairəsinə qatmağa çalışırlar. Baltikyanı dövlətlərlə donu açılmayan münasibətlər, Ukrayna, Gürcüstan, Moldova və Azərbaycanın ərazi bütövlüyünün pozulmasında Rusiyanın birbaşa və ya dolayı yolla iştirakı dediklərimizə misaldır.

Bəli, məqalənin əvvəlində dediklərimizə bir daha qayıtmaq istərdik, əgər Rusiya olmasaydı, yaxud Rusiya bütün bunları etməsəydi, dünənki "qardaşları"nın ərazilərinə gec və hər an partlayan minalar basdırmasaydı, qonşular arasında nifaq salmasaydı, regionda barışın əldə edilməsinə maneələr törətməsəydi, imperiya siyasətindən əl çəksəydi yəqin ki, indiki siyasət tablosunda başqa mənzərə təsvir edilərdi. Düşünürük ki, hələ də şanslar tamamilə itməyib. Siyasətin səkkiz üzlü olduğunu da unutmayaq, xüsusən də dünya siyasətinin. Hər an, hər şey dəyişə bilər. Rusiyanın "Ukrayna bataqlığı"na necə düşdüyü qeyri-müəyyən olduğu kimi, oradan necə çıxacağı da müəmmadır. Hər halda hər kəs öz taleyini yaşayır, Rusiya da. Bəs, Rusiya olmasa nə baş verər?

***V.VƏLİYEV***

TƏHLİL

# Erməni vandallığı: dağıdılan dini-tarixi abidələrimiz yenidən qurulur

***Azərbaycan xalqı 44 günlük Vətən müharibəsində dünyaya həmrəyliyi, xalq-iqtidar birliyini qazandığı Zəfər tarixində bir daha nümayiş etdirdi. Azərbaycan hərbi, iqtisadi gücü ilə dünyanın diqqətini özünə cəlb etdi və bu gün də işğaldan azad olunan ərazilərimizdə həyata keçirilən abadlıq-quruculuq işləri, Böyük Qayıdış üçün lazımı tədbirlərin, infrastruktur layihələri reallaşdırılması bir daha sübut edir ki, ölkəmiz istənilən vəziyyətdə qalib olduğu göstərə bilir. Dövlət başçısının işğaldan azad olunan bu ərazilərə səfəri və görülən işlərlə tanışlıq, eləcə də bir sıra reallaşacaq layihələrin təməlinin qoyulması, sürətlə bu ərazilərdə aparılan abadlıq-quruculuq işlərinin həyata keçirilməsindən xəbər verir.***



Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində mədəni abidələrimiz də dağıdılmış, işğal edilmiş ərazilərdə qeyri-qanuni aparılmış qazıntılar nəticəsində aşkar edilmiş tapıntılar ermənilər tərəfindən mənimsənilmişdir. Ermənilər bütün dövrlərdə Azərbaycana qarşı işğalçılıq siyasətini təkcə ərazi iddiaları ilə məhdudlaşdırmayıb, mədəni irsimizə, milli-mənəvi dəyərlərimizə göz dikmişdir. Erməni vandalizmi nəticəsində, Azərbaycan xalqının çoxəsrlik tarixini əks etdirən 700-dən artıq tarixi və mədəniyyət abidəsi qarət edilib və yandırılıb. Azərbaycanın işğal altında olan ərazilərini xarabalığa çevirən ermənilər vəhşilik missiyalarını həyata keçiriblər. İşğaldan azad olunmuş ərazilərdə məscidlər, mədrəsələr, körpülər, məbədlər nəinki dağıdılmış, eyni zamanda, bir çox hallarda xalqımızın milli-mənəvi dəyərləri təhqir edilmişdir. Füzuli rayonunda Hacı Ələkbər məscidi, Gecəgözlü, Yuxarı Veysəlli kənd məscidləri, Cəbrayıl rayonunda Süleymanlı və Papı kənd məscidləri, Qubadlı rayonunda Məmər və Yusifbəyli kənd məscidləri, Zəngilan rayonunda Zəngilan şəhər məscidi, Malatkeşin və Zəngilan kənd məscidləri və s. bu sıradadır. Ağdam şəhərində yerləşən Pənahəli xanın və Mehdiqulu xanın türbələri dağıntılara məruz qalmış, işğalçı Ermənistan tərəfindən abidələrə ciddi ziyan dəymişdi. Erməni silahlı qüvvələri tərəfindən ən çox dağıdılan daşınmaz mədəni irs nümunələri olan məscidlər, türbələr və digər inanc yerləridir ki, bu da erməni vandallığının göstəricisidir.





### “AĞALI KƏNDİNİN TİMSALINDA HƏR BİR AZƏRBAYCAN VƏTƏNDAŞI VƏ ÜMUMİYYƏTLƏ, HƏR BİR İNSAN BİZİM PLANLARIMIZI GÖRƏ BİLƏR”

Bu gün görülən işlər çərçivəsində dini-tarixi abdələrimizdə təmir və bərpa olunur. İşğaldan azad olunan ərzilərimizdə Zəngilan rayonunda aparılan abadlıq quruculuq işləri diqqəti çəkir. Azərbaycan Prezidenti İlham Əliyev çıxışların birində bildirdiyi kimi, ”Biz azad edilmiş bütün torpaqları bərpa edəcəyik və Zəngilan rayonu bu sahədə birinci rayondur ki, artıq keçmiş məcburi köçkünlər yaxın gələcəkdə oraya qayıdacaqlar”. Cənab İlham Əliyev birinci pilot layihənin Zəngilanın Ağalı kəndində həyata keçirildiyini qeyd edib: ”Ağalı kəndi faktiki olaraq yenidən qurulur, böyük və rahat kənd olacaq. Ağalı kəndinin timsalında hər bir Azərbaycan vətəndaşı və ümumiyyətlə, hər bir insan bizim planlarımızı görə bilər. Biz azad edilmiş torpaqları necə görmək istəyirik? Biz insanlara, oraya qayıdacaq insanlara hansı şəraiti yaratmaq istəyirik? Hər kəs görəcək ki, işlərimiz planlı və sistemli şəkildə aparılacaq, bütün amillər nəzərə alınacaq - təhlükəsizlik, rahatlıq, rifah, məşğulluq və gələcək inkişaf”.

Hazırda Zəngilan rayonunda böyük infrastruktur layihələri icra edilir. Onların arasında Zəngəzur dəhlizinin tərkib hissəsi olan nəqliyyat infrastrukturu da xüsusi əhəmiyyət kəsb edir. Uçuş-enmə zolağının uzunluğu 3 min metr olan hava limanında tikinti işləri davam etdirilir. Zəngilanda görülən və yaxın gələcəkdə reallaşacaq layihələr kifayət qədərdir.

### QARABAĞ TORPAĞINDA DİNİ ABİDƏLƏRİMİZİN, MƏSCİDLƏRİMİZİN BƏRPASI ÜZRƏ LAYİHƏLƏR HƏYATA KEÇİRİLİR

Görülən işlər sırasında dini abidələrimiz də diqqətdədir. Otuz ilə yaxın işğal dövründə dağıdılan, təhqir olunan dini abidələrimizin, məscidlərimizin yenidən həyata qaytarılması prosesində Heydər Əliyev Fondu müstəsna xidmət göstərir. Qarabağdakı dini abidələrin, məscidlərin bərpası işləri sürətlə davam etdirilir. Ermənistanın torpaqlarımızı işğal altında saxladığı otuz il ərzində digər ərazilərimizdə olduğu kimi, Zəngilan rayonunda da tarixi, dini, mədəniyyət abidələrimiz erməni vandalizminə məruz qalıb, dağıdılıb, təhqir edilib. İşğal dövründə Zəngilan şəhərindəki məsciddən də tövlə kimi istifadə olunub.

Mayın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci Xanım Mehriban Əliyevanın Zəngilana səfəri çərçivəsində ”Paşa Holding” MMC-nin dəstəyi ilə Heydər Əliyev Fondu tərəfindən inşa olunan Zəngilan məscidində tikinti işlərinin gedişi ilə tanış olublar. Rayonun işğaldan azad edilməsi nəticəsində buradakı tarixi, memarlıq abidələri də erməni əsarətindən xilas olub. Zəngilan məscidinin bərpasının təməl daşı dövlətimizin başçısı İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın və qızları Leyla Əliyevanın iştirakı ilə ötən il aprelin 26-da qoyulub, bərpa işləri fasiləsiz həyata keçirilir.

Fondun tarixi, mədəniyyət və dini abidələrin qorunub saxlanılması və bərpası istiqamətindəki fəaliyyəti hər kəsə məlumdur. Odur ki, Heydər Əliyev Fondu qədim Qarabağ torpağında dini abidələrimizin, məscidlərimizin bərpası üzrə layihə həyata keçirir. Fondun prezidenti Mehriban Əliyeva rəsmi ”Instagram” səhifəsindəki paylaşımlarının birində bildirdiyi kimi, işğaldan azad olunmuş torpaqlarımızdakı hazırkı mənzərəni hər birimiz ürək ağrısı ilə seyr edirik: ”Erməni təcavüzkarları bu illər ərzində şəhər və rayonlarımızı, oradakı yaşayış və inzibati binaları, bütün infrastrukturu dağıtmış, təbii sərvətlərimizi talan etmiş, bu ərazilərdəki dini, tarixi, mədəni abidələrimizi vandalizm aktlarına məruz qoymuşdur. Bir vaxtlar Azərbaycanın dilbər guşəsi olan Qarabağ bölgəsindəki abadlıqdan əsər-əlamət qalmamışdır”.

Layihə çərçivəsində yerli və xarici mütəxəssislərin iştirakı ilə bölgədəki ziyarətgahlarımızın bərpası, konservasiyası və yenidən qurulması həyata keçirilir. İşğal illəri ərzində Şuşa şəhərində və Ağdam rayonunda dağıntılara məruz qalmış dini ibadət yerlərinin bərpası üzrə müvafiq işlərə artıq başlanılmışdır.

***Zümrüd BAYRAMOVA***

***Bu gündən dünənə nəzər salanda diqqətimi ən çox çəkən də 30-dur, gözlərim önünə gələn də ancaq 30-dur. Çünki bu 30-un 104 yaşlı müstəqilliyimizlə unudulmaz bir bağlılığı var. Yəqin elə bu səbəbdəndir müstəqillikdən söz düşəndə ilk olaraq 30-un xatırlanması...***



# Taleyimizdəki rəqəmlər: 104, 70, 30...

104 il əvvəl bu xalq özünü müstəqil respublika elan etmişdi. İstiqlal Bəyannaməsi istiqlalımızın, milli dirçəlişimizin bəyanı, Şərqə doğan ilk günəş idi. Bir xalqın azad yaşamaq mədəniyyətinin göstəricisi idi. Bir xalqın özünəməxsus qaydalar, qanunlar çərçivəsində yaşamaq arzusu, hüquqi dövlətini yaratmağa siyasi baxışı idi. Və bunu bacardı da. Həm də hamıdan əvvəl bacardı. Ortaya qoyduğu yenilikçiliyi, azad yaşamaq kimi böyük mədəni hissləriylə, demokratik düşüncəsi ilə bacardı. 28 May 1918-ci il bu xalqın mədəni səviyyəsini, dünyagörüşünü, özünəinamını, özünə hörmətini sərgiləyən gün oldu. Biz öz cümhuriyyətimizi yaratdıq. Düzdür, bu, asanlıqla olmadı, yenə də əsrlərdən bəri bu xalqa qarşı olan mövqelər bu dəfə də özünü göstərdi, lakin biz bunu bacardıq. Kimlərinsə uzatdığı əlləri kəsdik, dilləri susdurduq, kimlərinsə düşüncəsinin əksi olaraq, istəyinə rəğmən bacardıq. Respublika olduq. Cəmi 23 ay ərzində dünyanın aparıcı ölkələri tərəfindən tanındıq. Respublikanın idarə olunması, inkişafı üçün qanunlar hazırlandı, həyata keçirilməyə başlandı. Lakin parlamentdə olan erməni əli, bəzi qarşıdurmalar, bir də böyük imperiya yaratmaq fikrində olanlar bu müstəqilliyə tab gətirə bilmədilər. Bu neft ölkəsinin müstəqilliyinin bir neçə illər sonrakı nəticəsi onların gözlərinə bıçaq oldu. Belə olanda isə müstəqilliyimizin hər an itirilmək təhlükəsi yarandı.

### 104-ün 70-i

Və itirdik də. Müstəqilliyimizin üzərində sovet hakimiyyəti quruldu. 28 Mayımız 28 aprelin qurbanı oldu. Çox mübarizə apardıq, lakin gücümüz yetmədi. Müstəqilliyimiz qarşıda bizi gözləyən 70 ilin əsarətinə düşdü. Zorla, silah gücünə müstəqilliyimiz üzərində yeni hakimiyyət quruldu. Bizi böyük bir imperiyanın gücünə tabe olmaq məcburiyyətində qaldıq. Rusiyanı yeni "Vətənimiz" deyə bizə təqdim etdilər. Lakin biz bunu qəti şəkildə qəbul etmədik. Ürəyimizdə yalnız Vətənimiz Azərbaycanı gəzdirdik, onu munis duyğularla, pak hisslərlə qoruduq, analığına bir zərrə xələl gəlməsinə izn vermədik. Biz yalnız anamızın qoynunda 70 ilə dözə bildik. Onun nəvazişləriylə, tövsiyələri, zəkası ilə bir əsrdən bir qədər aza tablaşa bildik. O günün nə vaxtsa gələcəyini anamızdan dinləyə-dinləyə 70 ilin hər gününü bir ümidə çevirdik. Bizi yaşadan anamızın mehribanlığı, qayğıkeşliyi, sığalı oldu. Yoxsa zülmlə qazandığımız müstəqilliyin zorla əlimizdən alınması alovunda çoxdan yanıb kül olmuşduq. Təsəllilərlə, tədbirli davranışlarla 70 ili ilbəil yola verdik.

Yola verdik, bəli, amma yasaqlarımız oldu, əlimizdən alınanlar, itirdiklərimiz oldu. Düşünəndə ki, 1918-ci ildə qazandığımız müstəqilliyimiz 70 il boyunca davam etsəydi, indi bu ölkə nə kimi inkişafa malik idi, istər-istəməz təəssüf hissi keçirir insan. Lakin nə fayda. Olan olmuş, 70 il istəməsək də əsarət zəncirlərində sıxılıb incimişik.

Sərvətlərimiz 70 ildə özgənin olub. İşləyən biz olmuşuq, mənfəətlənən özgəsi. Bizim sərvətlərimiz hesabına başqaları gözəl yaşayıblar, gözəl şəhərlərin, kəndlərin sahibi olublar. Bizim canlı qüvvəmiz, sərvətimiz hesabına müharibədə qələbə əldə ediblər. Lakin o doğma sərvətlərimizin uçub-dağılan kəndlərimizə heç bir faydası olmayıb. Yollarımız çala-çuxur, təmirsiz, binalarımız uçuq-sökük, illərlə təmirə möhtac qalıb. Övladlarımız rütubətli, birmərtəbəli, döşəməsi torpağa yapışan siniflərdə oxuyublar, fəhlə batalyonlarında əsgəri xidmət keçiblər.

Rus dili keçib dilimizin içərisinə. Hələ də o bələdan qurtula bilmirik. 70 il rus dili ana dilimiz üzərində hökmranlıq edib. Məktəblərimizdə ana dilimizdən çox rus dilinə yer verilib. İnsanlar bu dilə alışdırılıb. Elə bir şərait yaradılıb ki, rus dilində danışmayan insanlar sıxışdırılıb, onlara baxış yuxarıdan olub. Nə az, nə çox, düz 70 il idarətmə rus dilində fəaliyyət göstərib. İndi də həmin dövrlərdənqalma hansısa bir sənəd elə düşəndə o ögey dillə qarşılaşır, düşünürsən ki, gör bizim başımıza hansı oyunlar açılıb. Düşünürsən ki, İlahi, bu xalqın əzmi, gücü, dözümü nə qədərmiş... Repressiya illərinin məşəqqətlərini düşünəndə isə insanın bir anlığa sanki başına hava gəlir. Axı nə idi bu xalqın günahı, nə idi? Nə üçün bu qədər məhumiyyətlər onun başına gəlməli idi? Nə üçün biz müstəqilliyimizi 70 ilə qurban verməli idik, nə üçün? Axı 70 il əsarətdə olmasaydıq, 70-in tamamında başlanan 30-u da yaşamayacaqdıq...

### 70-dən sonrakı 30

Bəli, 70-dən sonra dəhşətli bir 30 illik yaşayacaqdıq. Heç ağlımıza belə gətirə bilməyəcəyimiz dəhşətli dərəcədə. Biz 70-i yenə də azadlıq, müstəqillik eşqi ilə sonlandırdıq. 70-in əvvəlindəki kimi müstəqil olmaq istədik. Çünki bu bizim ruhumuz idi. 70 il birtəhər özümüzü sıxıb, səsimizi çıxarmadığımız ruhumuz. Lakin zamanı çatmışdı. Bu istək, bu arzu ya həyata keçməli, olmalıydıq, ya da ölməli. Elə bu sonsuz arzu, istəklə də yenə də Azadlıq meydanına yığışdıq. Biz azad olmaq istədik. Müstəqilliyimizi bərpa etmək istədik. Lakin buna razı olardımı böyük imperiya? Xeyr, olmayacaqdı. Elə olmayacağına görə də başımıza 20 Yanvar müsibəti açıldı. Üstümüzə tanklar yeridildi, küçələrdə, balkonlarımızda, parklarımızda silahlarla üz-üzə gəldik, ömürlərimiz bitdi. Nə uşağımıza, nə böyüyümüzə aman verildi. Qan su kimi bir gecənin yağışı oldu. Küçələrimizi qırmızı rəngli qərənfillər "bəzədi", eyni sovet bayrağı rəngdə 70 il başımız üzərində dalğalanan bayraq balalarımızın məzarını öz rənginə bürüdü. Ürəyimizə dağ çəkildi, fəryadımız asimana yayıldı...

Lakin müstəqil olmaq mücadiləsindən əl çəkmədik. Qanımız, canımız sayəsində 1991-ci ildə 1918-ci ildə qazandığımız müstəqilliyimizi bərpa edə bildik. Elə bu bərpa ilə də 70-dən sonrakı 30 il başladı. Qonşuluqdan kənar olmuşlarımız qızışdırılıb üstümüzə salındı. Dövlətimizin başında dayananlara satqınlıq təklif olundu, onlar da canla-başla bu işə razılıq verdilər. Torpaqlarımız bir-birinin ardınca işğal olundu. Bu xalq Xocalı kimi faciə yaşamalı oldu. Birinci Vətən Müharibəsində minlərlə oğul şəhid oldu, itkin düşdü. 30 il işğal olunmuş torpaqlarımızdan zorla çıxarılan insanlar qaçqın köçkün, didərgin statusu daşıdılar. Qapıları bağlı qaldı yurdlarında. Həyət-bacaları erməni tapdağı altında inildədi. Erməni torpaqlarımızda daşı daş üstündə qoymadı. Satdı-sovdu evlərimizin dam örtüyünədək, torpaqlarımızın yeraltı-yerüstü sərvətlərinədək, meşələrimizin ağaclarınadək. Uçurdu, sökdü tarixi abidələrimizi, məscidlərimizi. Düz 30 il Qarabağ ağı deyib ağladı. Bircə il də zülmlə qazandığımız müstəqilliyi yaşaya bilmədi. Müstəqilliyimizdən 30 il xəbəri olmadı. Bilmədi ki, azadlığın dadı nədir. Qəddar əllərin xarabalığına çevrildi. Gözləri yolda soydaşlarını gözlədi. Bütün fəsilləri qovub çıxardı qoynundan, tək qışa yer verdi. Qış ömrünü yaşadı müstəqilliyinin gənclik çağında.

70 ildən sonra ikili 30 il yaşadıq. Biri 30 illik müstəqilliyimiz, digəri Qarabağımızın qara bəxtinin 30 ili. Qarabağ orada inlədi, biz burada ona əlimizi uzatmağa çalışdıq. Səsimizi dünyaya saldıq. Qarabağın harayını dünyaya yaydıq. Heç bir faydası olmadı. Biz müharibə istəmədiyimizi 30 ilin hər anında bəyan etdik. Torpaqlarımızın sakitliklə, dincliklə qaytarılmasını tələb etdik, eşitmədilər.

Dövlətimizin rəhbəri dünyanın ən mötəbər kürsülərindən beynəlxalq təşkilatları ədalətə dəvət etdi. Lakin onların qulaqları karlaşdı, eşitmədilər. Ulu öndərimizin Qarabağın qaytarılması nəsihəti ilə ölkəmizin iqtisadiyyatını gücləndirdik, ordumuzu təkmilləşdirdik. Çünki Qarabağın gözləri yollarda idi. Biz ona qayıtmağa hazırlaşmalı idik. Qarabağ orada 30 il gözlədi, biz burada 30 il onun üçün mücadilə apardıq. Bir gün azad olunması üçün tədbirlər gördük...

Zaman yetişdi... 2020-ci il oldu. Qarabağsız bilmədik müstəqilliyin dadını. Necə deyərlər, heç azadlığımızı yaşaya bilmədik ürəyimiz istəyən kimi. Çünki ürəyimizdə dağ boyda Qarabaq dağımız vardı. Bu dağı əritməyincə, Qarabağı da bu dağdan qurtarmayınca nə bayram, nə müstəqillik...

2020-ci ildə dövlətimizin başçısının son 18 ildə hər dəfə söylədiyi an yetişdi: Qarabağ danışıqlar yolu ilə azad olunmasa, müharibə yolu ilə azad olunacaqdır. Danışıqlar yolu baş tutmadı, biz torpaqlarımızın azadlığı uğrunda müharibəyə başladıq. 30 ildən sonra Qarabağa yollandıq: hazırlıqlı, təmkinli, qürurlu, əmin. 44 günlük İkinci Vətən Müharibəsi başladı. Minlərlə gəncimiz bu müharibədə döyüşdü, şəhid oldu, yaralandı, qazi oldu. 44-ün hər günü bir kəndimizin, ərazimizin işğaldan azad olunması ilə tarixləşdi. Bu xəbərləri Ali Baş Komandanımızdan, ordumuzun müzəffər sərkərdəsindən aldıq. Aldıqca da yeni müjdələri gözlədik.

Xalqımızın birliyinin, həmrəyliyinin yenidən şahidi olduq. Xalqdövlət birliyinin nəyə qadir olduğunu gördük. Dünyanı heyrətə gətirən bir müharibə həyata keçirdik. Düşməni qarşımızda diz çökdürdük, 30 ili burunlarından gətirdik. Birinci Qarabağ Müharibəsində şəhid olanlarımızın, itkin düşənlərimizin də, incidilən hər kəsin qisasını aldıq. Torpaqlarımızı geri aldıq...

2020-nin 44 gündə payızını yaza çevirdik. Güldü Qarabağ torpaqları, ağacları payızda çiçək açdı, göyləri gurladı, çayları şaqqıltı ilə axdı. Qarabağın bəxti üzünə güldü. Qara rəngi bəyazlaşdı, ömrü təzələndi. 30 illik qəm-qüssəsini, ələm-kədərini atdı. Qara yaylığını çıxarıb al kəlağayısını saldı başına. Ağladı şəhidi, qazisi üçün. Lakin qürur göz yaşları idi bu yaşlar. Çünki bu Vətəndə oğullar torpaq üçün doğulur. Namus, şərəf olan torpaq üçün.

### Zəfərli, qələbəli Müstəqillik Günü

Beləliklə Qarabağın azad olması ilə ərazi bütövlüyümüz bərpa olundu. Ötən il ilk dəfə oldu ki, müstəqillik bayramını azad torpaqlarımızla birgə qeyd etdik. Bu nə qədər əziz bir hiss idi, İlahi. Biz Qarabağa müstəqilliyin dadını hiss etdirdik. 30 ildə heç bilmədiyi dadı. Müstəqillik Günündə Şuşa, Laçın, Kəlbəcər, Zəngilan, Füzuli, Cəbrayıl-azad torpaqlarımızın hamısı əl-ələ verib yallı getdilər. Həm müstəqilliklərini, həm də azadlıqlarını bayram etdilər.

Müzəffər sərkərdəmizin dəmir yumruğu 44 gündə minlərlə zərbəyə çevrilib düşməni birdəfəlik torpaqlarımızdan rədd etdi. İndi Qarabağ xoş günlərini yaşamaqda, yenidən qurulmaqda, abadlaşmaqdadır. Sinəsindən düşmənin son izləri təmizlənir ki, yurddaşları evlərinə qayıda bilsinlər.

Budur, yenə Müstəqillik Günündəyik. Bərpasından 30 il ötən müstəqillik günündə. Bu gün Qarabağ xalqı ilə Müstəqillik Gününün sevincini yaşayır. Həm Müstəqillik Gününün, həm də azadlığının sevinci bir-birinə qarışıb.

Ömrümüzdən 104, 70, və 30 rəqəmləri öz izləri, tarixləri ilə keçib, getdi. İndi qarşıda yeni illər gözləyir bizi. Bütöv, müstəqil Azərbaycanın ən xoş günləri hələ qarşıdadır. Ölkəmizin başçısının bu xalqa bəxş etdiyi qürurla yeni, işıqlı, abad bir yola çıxmışıq. Müstəqilliyimizin bərpasının 50-ci, 100-cü illərinə doğru bir yola...

***Mətanət MƏMMƏDOVA***

# Uşaq bezləri -rahatlıq, yoxsa sağlamlıq?

***Günümüzdə yeni anaların əksəriyyəti körpəsi doğulmadan uşaq bezlərini alıb saxlayır. Lakin bez alarkən diqqət etməli olduğunuz çox mühüm bir məqam var.***



Əvvəla körpəniz çox sürətlə böyüyəcək. Bunun üçün etməniz lazım olan, körpəniz üçün saxlayacağınız uşaq bezlərinin yalnız yeni doğulanlara uyğun olanlarını almamağınızdır. Demək olar ki, hər ölçüdə uşaq bezlərindən istifadə edəcəyini nəzərə alsaq, hər ölçüdən bir az almaq daha məntiqli olardı. Daha sonra bezləri bitdikcə yenisini alın. Birdəfəlik alıb saxlamaq büdcəyə zərər vurur.

Bundan başqa, unutmayın ki, alacağınız uşaq bezi körpənin dərisinə uyğun olmalıdır. Hansı materialdan hazırlandığına diqqət yetirin. Bir uşaq bezi markasını sınamağa qərar verdiyiniz zaman, körpənizin dərisi qıcıqlanırsa, qızarırsa dərhal dəyişdirin. Uşağınızın sağlamlığı uşaq bezlərinə xərclədiyiniz puldan daha vacibdir.

Diqqət yetirilməli digər vacib məqam uşaq bezlərinin nömrələridir. Ümumiyyətlə, markaların uşaq bezi nömrələri çəkiyə görə dəyişir. Bu zaman edilməli olan uşaq bezləri alarkən yaşa deyil, çəkiyə görə seçim etməkdir. Bəzi körpələr 3 kilo, bəzi körpələr 5 kilo doğula bilər və uşaq bezləri yaşa görə deyil, çəkisinə görə alınmalıdır. Bu, yeni anaların ən çox etdiyi səhvdir.

İndi oğlanlar və qızlar üçün uşaq bezləri üçün müxtəlif variantlar var. Oğlan və qız uşaqları anatomik cəhətdən fərqli olduqları üçün istifadə etdikləri uşaq bezləri onlar üçün xüsusi istehsal olunmalıdır. Oğlanlar üçün istehsal edilən uşaq bezlərinin ön hissələri daha çox hopdurucu olduğu halda, qız uşaq bezlərinin orta hissələri daha çox hopdurucudur.

Başqa bir məsələ, külot şəkilli uşaq bezlərindən istifadə etmək istəməyinizdir. İstifadə etmək istəyirsinizsə, körpənizin hazırkı çəkisini nəzərə alaraq almanızı məsləhətdir. Əks halda, bəzi körpələrin ayaqları daha qalın olduğundan, bu uşaq bezləri onların ayaqlarını sıxa bilər. Əksinə, çox zəif olan körpələrdə daşma, axma kimi problemlər ola bilər. Bunlara da diqqət yetirməlisiniz.

Başqalarının istifadə etdiyi və bəyəndiyi uşaq bezlərini sınaqdan keçirin. Bu tövsiyələrin hamısı əsasən yeni ana olacaqlar üçündür.

Bəs, düzgün uşaq bezini necə tapmaq və uşaq bezi alarkən nələrə diqqət etməliyik? SİA mövzu ilə bağlı araşdırma apararaq pediatrların fikirlərini öyrənib.





**Mütəxəssis pediatr Yüksel Hüseynli:** "Valideynləri ən çox narahat edən mövzulardan biri də övladına uşaq bezi seçimidir. Bu, xüsusən də ilk dəfə valideyn olanlar üçün həssas mövzulardandır.

Uşaq bezi seçimində diqqət etməli olduğumuz məqamlar bunlardır:



* Quru saxlama xüsusiyyəti
* Yumuşaqlıq
* Maye keçiricilik
* Yan bandların elastikliyi
* Hava alması
* Tərkibi.

Maye keçiriciliyi zəif və hava dövranı pis olan bezlər uşaqlarda bişməcələrə səbəb ola bilir. Tərkib demək olar ki, əksər bezlərdə eynidir. Bəzi bez markaları parfüm və boya maddələri istifadə edirlər.Təhlükəsiz olduğu deyilsə də,uşaqlarda allergik reaksiyalara səbəb ola bilər. Ona görə bez seçərkən tanınmış, illərdir istifadə olunan və çevrəmizdə də etibarla istifadə olunan markaları seçməliyik.

Uşaq bezlərinin nömrəsinin seçimində ən uyğun göstərici uşağın kilosudur. Yaşından kiçik ölçülü bezlərin alınması uşaqda narahatlıqlara, bezin ətrfaları sıxması nəticəsində bişməcə, qan dövranı pozulmasına səbəb ola bilər. Böyük bezlərdə isə kənardan axıntı ola bilər. Ən idealı bir dəfəlik bir neçə qutu bez almaq əvəzinə, bez bitdikcə uşağın çəkisi nəzərə alınıb bez almaqdır.

Uşaqlarda tualet alışqanlığı dövründə isə daha ucuz və su keçirən markalar uşağın bezdən ayrılmasına kömək olacaq. Eyni zamanda, yuyula bilən bezlər də həm sağlamlıq nöqteyi nəzərdən, həm də tualet alışqanlığına keçid dövrü üçün uyğundur.

Ümumi olaraq elə alsam bez müasir dövrdə, xüsusən işləyən analar üçün ideal vasitədir. Uşaq üçün ən idealı isə rahat, yumuşaq, hava keçiriciliyi yaxşı olan, uşaqda allergik reaksiyalara səbəb olmayan və ailənin büdcəsinə uyğun sınanmış bezlərdir".



**Pediatr Sevda Novruzova:** "Son illərdə istifadə olunan uşaq bezləri uşağın orqanizmi üçün çox faydalıdır. Onlar uşağı bir neçə saat içərisində quru vəziyyətdə saxlayır. Bu bezlər mayeni tam özünə çəkir və uşaq nəmlik hiss etmir. Həmçinin, mütxəlif dəri səpkiləri və bişməcələrin qarşısını alır.

Əvvəllər analar parçalardan istifadə edirdilər və bu da bir müddətdən sonra uşağın bədəninin soyuq maye ilə kontakta salırdı. Nəticədə də bədənin müqaviməti zeifləyirdi. Uşaq dəriləri çox həssasdır və sidikli parça uşaq dərisini qıcıqlandırraraq dəri problemi yaradır.

Uşaq bezi uşağın ayına uyğun olmalıdır. Yəni, ölçü nə kiçik, nə də böyük olmamalıdır. Uşaq adi su ilə yuyulur, pambıq material parça ilə qurudulub sonra bezdən istifadə etmək lazımdır.

Bir məqam da var ki, uşağın bədəni bezdə çox qaldıqda bu orqanizmə mənfi təsir göstərir. Bezlər 3 saatdan çox olmamaq şərti ilə dəyişdirilməli və nəcis ifrazı olubsa 3 saat gözlənilməməlidir. Tez bir zamanda uşaq bədəni yuyulub qurudulmalıdır. Bütün bu qaydalar yerinə yetirilsə bezlər uşaq üçün sağlamlıq demək olacaq. Problemin yaranması bezin istifadə olunmasının fəsadı deyil, düzgün istifadə olunmamağın fəsadıdır".

*Ayşən Vəli*

ARAŞDIRMA

# "28 May - Azərbaycan dövlətçilik tarixinin şanlı səhifəsi"





YAP Daşkəsən rayon təşkilatı "28 May: Azərbaycan dövlətçilik tarixinin şanlı səhifəsi" mövzusunda yığıncaqları davam etdirir. YAP Daşkəsən rayon təşkilatının mərkəzi rayon xəstəxanası, sukanal idarəsi, Quşçu kənd və Əli İsmayılov adına ərazi partiya təşkilatlarında "28 May: Azərbaycan dövlətçilik tarixinin şanlı səhifəsi" mövzusunda yığıncaq keçirildi.Yığıncaqlarda iştirak edənlər nitq söylədilər. Yığıncaq iştirakçıları nitqlərində müstəqilliyimizin əldə olunmasından, Ulu Öndərimiz Heydər Əliyevin ömrünü xalqımıza xidmətə həsr etməsindən və müstəqilliyimizə yenidən qovuşmaq üçün gördüyü misilsiz işlərdən, Ulu Öndərimizin layiqli davamçısı Yeni Azərbaycan Partiyasının Sədri, Ali Baş Komandanımız İlham Əliyevin apardığı düzgün daxili və xarici siyasətdən, 44 gün ərzində 30 illik Vətən həsrətinə son qoyulmasından və işğaldan azad edilən ərazilərdə böyük quruculuq və abadlıq işlərinin uğurla aparılmasından söhbət açıblar. Quşçu kənd və Əli İsmayılov adına ərazi partiya təşkilatlarında gənclər və şagirdlər rəqs edib, şeirlər söyləyiblər.

# Yeni Azərbaycan Partiyası daim inkişafda olan partiyadır

YAP Yasamal rayon təşkilatının "İnşaatçılar prospekti 39" ünvanında (Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) yerləşən ərazi partiya təşkilatında iclas keçirilib. İclasda YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev, sədr müavini Elnarə Mustafayeva, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru, professor Ceyran Mahmudova, ərazi partiya təşkilatının sədri Vasif Adilov və əməkdaşlar iştirak etmişdir.



İclası giriş sözü ilə açan Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru, professor Ceyran Mahmudova iştirakçıları salamlayaraq bildirib ki, Azərbaycan bugünki inkişafı ilə, siyasi, iqtisadi, hərbi, mədəni və s. istiqamətlər üzrə əldə etdiyi nəticələrə görə bölgədə və dünyada söz sahibi olan bir ölkəyə çevrilir, ön siyahılarda yer alır. Bu nəticənin əldə olunmasında ölkəyə rəhbərlik edən Ümummilli Lider Heydər Əliyevin layiqli davamçısı olan Cənab Prezidentimiz İlham Əliyevin gərgin əməyi, yorulmadan çalışması, uzaqgörən xarici və daxili siyasəti dayanır.

Sonra çıxış edən YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev iclas iştirakçılarını salamlayaraq, partiyamızın uğurlu fəaliyyətindən bəhs edib. O, qeyd edib ki, bu gün əminliklə demək olar ki, yaradıcısı Ümummilli Lider Heydər Əliyev olan, Qafqazın ən böyük siyasi partiyası olan Yeni Azərbaycan Partiyasının fəaliyyətində Ulu Öndərin ideya və arzuları yaşayır. Azərbaycan Qarabağ Zəfərindən sonra yaranmış yeni reallıqlar fonunda Azərbaycan Yeni Azərbaycan Partiyasının Sədri, Prezident, Müzəffər Ali Baş Komandan Cənab İlham Əliyevin rəhbərliyi ilə parlaq gələcəyə doğru daha inamla irəliləyəcək. Tədbirin sonunda "İnşaatçılar prospekti 39" ünvanında yerləşən ərazi partiya təşkilatında YAP-na yeni üzv olan əməkdaşlara partiya vəsiqələri təqdim olunub və onlara gələcək siyasi-ictimai fəaliyyətlərində uğurlar arzulanıb.

***Nəzakət Ələddinqızı***

# YAP Laçın rayon təşkilatı tərəfindən Müstəqillik Günü münasibətilə dəyirmi masa keçirilib



***YAP Laçın rayon təşkilatı tərəfindən "28 May Müstəqillik Günü" münasibətilə dəyirmi masa keçirilib. Öncə Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin xatirəsi 1 dəqiqəlik sükutla yad edildi.***

Sonra YAP Laçın rayon təşkilatının sədri İlqar İlyasov giriş nitqi ilə çıxış edərək, müsəlman Şərqində ilk dünyəvi demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin tarixindən danışaraq, 1918-ci il mayın 28-də müsəlman Şərqində ilk dünyəvi demokratik dövlət Azərbaycan Xalq Cümhuriyyəti yarandığını bildirərək qeyd etmişdir ki, yeni qurulan Azərbaycan Xalq Cümhuriyyəti öz üzərinə götürdüyü çətin tarixi vəzifəni imkanlarının ən son həddində çalışaraq şərəflə yerinə yetirdi. Azərbaycanın ilk parlamenti və hökuməti, dövlət aparatı təşkil edildi, ölkənin sərhədləri müəyyənləşdirildi, bayrağı, himni və gerbi yaradıldı, ana dili dövlət dili elan edildi, dövlət quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi. Ölkənin ərazi bütövlüyü və milli təhlükəsizliyi təmin edildi, qısa müddətdə ordusu yaradıldı, milli tələblərə və demokratik prinsiplərə uyğun dövlət orqanları quruldu,

Azərbaycan Xalq Cümhuriyyəti 23 aydan sonra təcavüzə məruz qaldığı üçün qarşıya qoyduğu məqsədlərə tam müvəffəq ola bilmədən süquta uğrasa da, onun şüurlarda bərqərar etdiyi müstəqillik ideyası unudulmadı. Azərbaycan xalqı ötən dövr ərzində milli dövlətçilik atributlarının bir çoxunu qoruyub saxlaya bildi. Ümummilli Lider Heydər Əliyevin respublikada uğurla gerçəkləşdirdiyi siyasət xalqımızın tarixi-mədəni yaddaşını özünə qaytararaq milli mənlik şüurunu inkişaf etdirdi, Azərbaycançılıq məfkurəsi işığında müstəqillik arzularının güclənməsi və yaxın gələcəkdə yenidən həqiqətə çevrilməsinə zəmin yaratdı. Tədbirdə çıxış edən natiqlər qeyd ediblər ki, Ulu Öndər Heydər Əliyevin dediyi kimi "Müstəqilliyi qazanmaq çətindir, amma onu qoruyub saxlamaq isə ondan da çətindir" sözləri zamanın sınağından çıxdı. Bu gün fəxrlə deyə bilərik ki, Azərbaycanın dövlət müstəqilliyi bizim tarixi nailiyyətimizdir, ən böyük sərvətimizdir. Ümummilli Liderin sözləri ilə desək, "Azərbaycanın dövlət müstəqilliyi daimidir, əbədidir, dönməzdir". Ulu Öndərin layiqli davamçısı İlham Əliyev müstəqillik yolu ilə irəliləyən Azərbaycanı daha böyük zirvələrə çatdırıb və ölkəmiz bütün dünyada güclü dövlət kimi tanınır. Ulu Öndərin əsasını qoyduğu siyasət onun layiqli davamçısı Cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. 44 günlük Vətən Müharibəsi bunun bariz nümunəsidir.

# "Şuşa dünən, bu gün, sabah" mövzusunda tədbir keçirilib





Nizami rayonunda, 201 nömrəli tam orta məktəbdə "Şuşa ili" çərçivəsində "Şuşa dünən, bu gün, sabah" mövzusunda tədbir keçirilib. Tədbirdə Nizami rayon icra hakimiyyəti başçısının müavini İldırım Mehdiyev, Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri Ramil Vəlibəyov, Bakı şəhəri üzrə Təhsil İdarəsinin Təlimə Dəstək Mərkəzinin rəhbəri İlkin Həsənov, İdarənin Keyfiyyətə nəzarət sektorunun müdiri Anar Mustafazadə, Beynəlxalq Pedaqoji Akademiyanın həqiqi üzvü, əməkdar elm xadimi, professor Fərrux Rüstəmov, Bakı Dövlət Universitetinin Yeni media və Kommunikasiya nəzəriyyəsi kafedrasının müdiri Xatirə Hüseynova, 201 saylı tam orta məktəbin direktoru Afaq Əliyeva, eləcə də Vətən müharibəsi qaziləri, rayonun ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbir iştirakçıları öncə məktəbin foyesindəki sərgi ilə tanış olub, Qarabağa həsr edilmiş yaradıcı guşələrə tamaşa ediblər. Akt zalında davam etdirilən tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səslənməsi ilə başlayıb və ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda mübarizədə canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Çıxış edənlər bildiriblər ki, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu dünyanın hərb tarixinə düşən hərbi əməliyyat ilə Şuşa şəhərini düşməndən azad edib və bu gün üçrəngli Azərbaycan bayrağı orada qürurla dalğalanır. Vurğulanıb ki, müzəffər Azərbaycan Ordusu qarşı tərəfin ən möhkəm istehkamlarını qəhrəmancasına darmadağın edərək Qarabağ dağlarının zirvəsini - milli kimliyimiz, qürurumuz, qeyrət və mənliyimizin rəmzi olan, 28 il həsrət qaldığımız qədim Şuşamızı, Cıdır düzünü, İsa bulağını, Xarıbülbülümüzü öz canı və qanı bahasına əbədi olaraq xilas edib. Çıxışlardan sonra məktəblilərin hazırladıqları ədəbi-bədii kompozisiya nümayiş etdirilib, tədbir çərçivəsində keçirilmiş müsabiqələrin qalibləri mükafatlandırılıblar.

# Vay Ermənistan, vay...!

### Siyasi-iqtisadi böhranlar içində boğulan ölkə mətbuatı nə yazır?

Ermənistan revanşistlərinin əsas ruhlandırıcı şəxslərindən biri olan daşnak İşxan Saqatelyan, eləcə də keçmiş iqtidar rəhbərləri -



Коллаж «Вестник Кавказа»

Robert Koçarya və Serj Saqrsyan cütlükləri başda baş nazir Nikol Paşinyan olmaqla hakimiyyəti məqsədli şəkildə xalqı aldatmaqla məşğul olduğunu bildirir və bu istiqamətdə ittiham edirlər. Artıq uzun müddətdir ki, revanşist müxalifət özünə "müqavimət hərəkatı" etiketini yapışdırmaqla əsasən İrəvanda ardıcıl küçə yürüşləri təşkil edir, insanları iqtidara qarşı kütləvi müqavimətə çağırırlar. "Paşinyan bəyan edir ki, xalqın kürəyi arxasından heç bir sənədə imza atmayacaq. Bunu həmin insan deyir ki, dörd il xalqın kürəyi arxasından danışıqlar aparırdı, ancaq sonradan bu danışıqları iflasa uğratı və nəticədə müharibəyə səbəbkar oldu. 44 gün müharibənin hər günündə o insanları aldadır və qələbə vədləri ilə yemləyirdi, müharibədən sonra isə şifahi razılaşmalar əsasında yeni əraziləri güzəştə getdi. İndi isə ölkənin təhvil verilməsi üçün danışıqlar aparır", deyə bu günlərdə revanşist müxalifətin



mitinqində çıxış edən və revanşistlərin əsas ideoloqlarından, koordinatorlarından olan daşnak İşxan Saqatelyan bildirib. O, baş naziri xroniki yalançı adlandırıb və həmçinin insanları axmaq yerinə qoyduğunu deyib.

### Ararat Mirzoyan öz işçilərini zirzəmi vasitəsi ilə XİN binasını tərk etməyə çağırıb, özü isə binaya daxil ola bilməyib...

Revanşist Saqatelyan onu da iddia edib ki, hakimiyyət öz planlarını sona qədər realizə edə bilməyəcək. O, müxalifət tərəfdarlarını templərini azaltmamağa, hakimiyyətə qarşı təzyiq göstərməyi davam etməyə çağırıb. SİA xəbər verir ki, bu barədə Ermənistanın "Hraparak" nəşri yazır. Qəzet qeyd edir ki, yeni taktikalardan biri də dövlət binalarını zəbt edib etirazlar səsləndirməkdir. Növbəti hədəf isə parlament və s. hökumət binalarıdır.

Nəşr xatırladır ki, mayın 24-də XİN-nin binası qarşısında insanlar toplaşarkən nazir Ararat Mirzoyan öz işçilərini zirzəmi vasitəsi ilə oradan çıxarmağı tapşırıb. Lakin həmin vaxt hər kəs binanı tərk etməyə macal tapa bilməyib. Üstəlik, Mirzoyan XİN qarşısına daha çox polis güclərinin cəlb edilməsini istəyib ki, binaya maneəsiz daxil ola bilsin. Lakin polis onun bu istəyini yerinə yetirə bilməyib. Adıçəkilən nəşr yazır ki, iğtişaşçılardan biri polisin Ararat Mirzoyanın mühafizəçilərinə XİN-nin giriş qapısını açmağa imkan verilmədiyini, nazirin isə geri dönməli olduğunu deyərkən onun bu sözlərini eşidib.

### Şarl Mişelin bəyanatı revanşist müxalifəti daha da aqressivləşdirib

Bu arada, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin Brüssel görüşünün nəticələrini yüksək qiymətləndirməsi də erməni revanşistlərini hiddətləndirib. Belə ki, onun görüşün müsbət məcrada keçirilməsi və sərhədlərin delimitasiyası istiqaməti üzrə nəticələrin əldə olunması üçün münbit vaxtın çatdığını özünün "Twitter" səhifəsində qeyd etməsi müxalifətin daha da aqressivləşməsinə səbəb olub.

Üstəlik, mayın 24-də Ermənistanla Azərbaycan sərhədlərində iki ölkənin müvafiq komissiya rəhbərlərinin görüş keçirmələri, eləcə də onların növbəti görüşlərinin Moskvada keçirilməsi ilə bağlı qərar vermələri də revanşist küçə müxalifətinin qara-qışqırıqları ilə müşahidə edilib.









### Hakimiyyət nümayəndələri KİV-lərin suallarından qaçırlar, jurnalistlərin işlərini məhdudlaşdırırlar

Erməni jurnalistləri iddia edirlər ki, hakimiyyətin əsas simaları KİV-lərin suallarından yayınır və qaçırlar. "Sputnik Armeniya"nın yazdığına görə, Ermənistan parlamenti dövlət orqanlarında akkreditasiya olunmuş jurnalistlərin işlərini məhdudlaşdırıb. "Ermənistan parlamentinin hakim "Vətəndaş sazişi" fraksiyasının deputatları bununla bağlı düzəlişləri ikinci oxunuşda qəbul ediblər. Keçmiş jurnalist, hazırda deputat olan Artur Ovannisyannın sözlərinə görə, daha əvvəlki düzəlişlərdə jurnalistin çalışdığı məkanda yalnız qayda pozuntularına yol verdiyi halda işi məhdudlaşdırıldığı bildirilirdi. Ancaq sonradan KİV qanununun bəndində digər problem yarandı: akkreditasiyanı yalnız KİV-in öz jurnalistlərini geri çağırması qərarı ilə ləğv etmək olar, ancaq onlar (KİV rəhbərləri) öz jurnalistləri ilə bağlı heç bir ölçülər götürmürlər", deyə erməni deputatı bildirib.

Erməni parlamentarisi hesab edir ki, bu hal ölkə parlamentinin işini normal qaydada aparmasına mane olur və bundan əlavə, digər jurnalistlərin də işlərinə maneələr törədir. Bundan sonra isə akkreditasiyanın başa çatması ilə bağlı belə yazılacaq: "Jurnalistin akkreditasiyası onu təqdim edən KİV-in, ya da onu akkreditasiyadan keçirən dövlət orqanının müraciəti əsasında başa çatdırıla bilər".

Adıçəkilən nəşr onu da xatırladır ki, bundan əvvəl jurnalistlərin fəaliyyətlərinin məhdudlaşdırılması ilə bağlı daha bir qanun da qüvvədədir. Onlar parlament binasının daxilində hərəkət edə bilməzlər.

### İrəvandakı səyyar satıcılara qarşı müharibə elan olunub, başgicəlləndirici cərimələr tətbiq edilir

Ermənistanın "ARKA" adlı internet-nəşri isə yazır ki, İrəvan şəhərinin rəhbərliyi səyyar küçə satışları ilə bağlı yeni mübarizə metodu tətbiq edirlər. Nəşr qeyd edir ki, gündəlik qazancları ilə ailələrini dolandırmağa çalışan vətəndaşlara qarşı zor gücü tətbiq edilir, eləcə də külli miqdarda cərimələr yazılır. "Təkcə son həftədə İrəvanda inzibati pozuntularla bağlı 10 cərimə protokolu yazılıb. Daha 75 protokol da baxılmağa göndərilib", deyə meriyanın səlahiyyətlisi Ovik Safaryan internet-qəzetə bildirib.

Həmçinin bəlli olub ki, İrəvanda açıq səma altında yalnız gül, sərinləşdirici içkilər və dondurma satıla bilər. Qaydalar pozularsa başgicəlləndirici cərimələr təqdim olunur - ilk pozuntuya görə 70-90 min dram (150-200 ABŞ dolları), təkrar pozuntuda isə 200 min dram (450 ABŞ dolları).

Beləliklə, ölkə iqtisadi və siyasi böhranlar içində çabalayır və maraqlıdır ki, ölkədəki siyasi təlatümləri də buraya əlavə etsək bu zaman istər revanşçıların, istərsə də hökumətin nə qədər çarəsiz durumda qaldıqlarını bir daha göümüş olarıq. Əgər revançılar öz istəklərinə nail olsalar, Nikol Paşinyan hakimiyyətini devirsələr Ermənistanın aqibəti daha da pis olacaq, ölkə demək olar ki, süquta uğrayacaq. Bütün bunların qarşısının alınması üçün isə Paşinyan iqtidarının zamanı çox azdır - erməni baş naziri danışıqlarda bir, ölkəsində isə başqa cür bəyanatlar səsləndirməklə çulunu sudan quru çıxara bilməyəcək. Hər halda, indiki vəziyyətə olan bir ölkəyə yalnız vay Ermənistan vay demək qalır...

**Rövşən RƏSULOV**

# "Ölkədə şəhid ailələrinə və qazilərə hər zaman diqqət göstərilir"

***"Azərbaycanda şəhid ailələri və qazilərə olan qayğı bütün dövrlərdə yüksək səviyyədə olub. Azərbaycanın 2-ci dəfə müstəqilliyini bərpa edəndən sonra 20 min şəhidi var. Yəni bu da o deməkdir ki, Azərbaycanın həm də 60 min qazisi var". Bu sözləri SİA-ya açıqlamasında Jurnalist Ekspert Mərkəzinin sədri Ceyhun Musaoğlu bildirib.***



Onun sözlərinə görə, bu kiçik bir ölkə üçün qısa bir müddətdə böyük rəqəmdir: "Bu rəqəmin ifadəsi olan insanların qayğısına qalmaq, qulluğunda durmaq və digərlərindən müsbət mənada fərqləndirmək bir dövlət üçün fenomen hadisədir. 2-ci Qarabağ müharibəsindən sonra xüsusən şəhid ailələrinə və qazilərimizə qarşı olan diqqət, qayğı yüksək səviyyədədir. Müharibədən sonra ölkəmiz bütün sahələrdə güclənərək, öz qüdrətini bütün dünyaya bir daha sübut etdi. Cənab Prezident İlham Əliyev və Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyeva öz hümanist rəfdarları ilə daima şəhid ailələni və qazilərimizi diqqətdə saxlayırlar. Amma təəssüflər olsun ki, bu gün qazilərin və şəhid ailələrinin adından sui-istifadə edirlər. Bu da insanda ikrah hissi doğurur. Bəzi şəhid ailələri yalnışlığa yol verir, qazilər düzgün olmayan addımlar ataraq narazılıq yaradırlar. Sonda isə araşdırılaraq məlum olur ki, haqlı deyirlər. Qazilərimiz demək olar ki, daima forma ilə gəzirlər. Lakin bu qanuni olaraq düzgün deyil. Bir aralar qazilər nömrəsiz avtomobil idarə edirlər. Kimliyindən aslı olmayaraq belə hərəkətə yol verməz cinayət hadisəsi sayılır. Qazilərimiz bu kimi hallara yol versələr də polislərimiz onlarla son dərəcədə incə rəftar edərək, onların qarşısını almağa çalışırdılar.

Dünyanın heç bir yerində məmurla mülki insan arasında bu cür münasibət yoxdur. Düzdür, bəzi hallarda məmurlarında etdiyi bir sıra yolverilməz hallar olur. Lakin bu o demək deyil ki, biz hər zaman qarşılıqlı dava şəraitində olmalıyıq. Şəhid ailələrinə diqqət və qayğı hər zaman göstərilir və göstəriləcək də. Ötən günlərdə bir şəhid anası torpaq iddiası ilə meydana gəlsə də, sonradan məlum oldu ki, bu maklerin torpağıdır və şəhid anasının adına çıxarır ki, rahatlıqla həmin torpaqda ev tikə bilsin. Sosial şəbəkələrdə bu xəbərlər yayıldığı zaman heç kim araşdırmırdı ki, bu hadisə haradan qaynaqlanıb. Amma hamı istədiyini yazaraq, mövzunu şərh etdi. Amma hamı qanuna tabe olmalı və ona uyğun şəkildə hərəkət etməlidir. Hətta şəhid ailələri və qazilər qanunu daha çox qorumalıdır. Çünki bu qanunlar əsasında formalaşan və yaranan Azərbaycan üçün canından-qanından keçiblər. İctimai qınaq bizdə düzgün baş vermir məhz bu səbəbdən də belə problemlər ortaya çıxır.

***Banuçiçək Hüseynli***

# Şamaxı- 2023-cü il üçün "Türk dünyasının turizm paytaxtı"




Şamaxıda turizm sektorunu şərtləndirən bütün faktorların olması yaxın perspektivdə bu sahənin daha sürətli inkişafına imkanlar açır. Bu yerlərin təbiətinə xas olan zəngin flora və faunanı, qədim tarixə malik abidələri son zamanlar rayonda tikilən, mükəmməl infrastruktura malik olan, müasir tələblərə cavab verən mehmanxana kompleksləri tamamlayır. Şamaxıda istifadəyə verilən müasir səviyyəli optik elektronlu NGN (Next Generation Network) şəbəkəsi də bu kommunikasiya vasitələrindən yararlanmağa imkan verir ki, bu faktorun özü də turistlər üçün cəlbedici və vacib faktordur.

Ulu düzü, Bülövdaş, Şərədil, Dədəgünəş, Qonaqkənd meşələri, dəniz səviyyəsindən 1400-1500 metr yüksəklikdə yerləşən Pirqulu zonası istirahət və turizm üçün olduqca əlverişlidir. Şamaxıda keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) Turizm üzrə İşçi Qrupunun 17-ci iclasında rayonda turizm sektorunun inkişafında yeni perspektivlərin açılması baxımından faydalı oldu. Ən yaxın gələcəkdə Türk Dövlətləri Təşkilatına üzv dövlətlər arasında turizm əlaqələrinin inkişaf etdirilməsində Şamaxı şəhərinin mühüm rol oynayacağı təsdiqləndi.

Türk Dövlətləri Təşkilatının turizm nazirlərinin görüşü çərçivəsində keçirilən tədbirdə təşkilata üzv və müşahidəçi dövlətlərin iri şəhərləri arasında birbaşa uçuş sayının artırılması, bilik və təcrübə mübadiləsi əsasında tarixi İpək Yolunun turizm potensialının istifadə edilməsi, "Müasir İpək Yolu Birgə Turu"nun və "Türk Dünyası Turizm Paytaxtı" layihələrinin həyata keçirilməsi, qış turizmi üzrə əməkdaşlığın genişləndirilməsi və digər məsələlərə baxıldı. İclasda həmçinin BMT-nin Ümumdünya Turizm Təşkilatı tərəfindən həyata keçirilən layihənin analoqu olaraq türk dövlətlərinin "Ən Yaxşı Turizm Kəndləri" təşəbbüsü, turizm əhəmiyyətli ortaq mədəni irs elementlərini özündə birləşdirən İpək Yolu transmilli və seriya nominasiyası üzrə UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilməsi üçün birgə müraciətin hazırlanması üzrə tərəfdaşlıqla bağlı müzakirələr aparıldı.

Tədbirə Azərbaycan, Türkiyə, Qazaxıstan, Özbəkistan, Türkmənistan və Macarıstandan turizm siyasətini həyata keçirən dövlət qurumlarının təmsilçiləri və turizm üzrə mütəxəssislər qatıldı. TDT-nin Baş Katibliyinin iştirakı ilə keçirilən iclasda üzv dövlətlər arasında turizm əlaqələrinin inkişaf etdirilməsi üçün birgə turizm məhsullarının yaradılması və təbliğat tədbirlərinin gücləndirilməsi məqsədilə görüləcək işlər barədə razılaşmalar əldə edildi. İşçi qrupun iclasının gündəliyində müzakirə olunan "Türk Dünyası Turizm Paytaxtı" layihəsinə əsasən 2023-cü il üçün Şamaxı şəhəri "Türk Dünyası Turizm Paytaxtı" seçilməsi təklif edildi. Türk Dövlətləri Təşkilatının turizm nazirlərinin 7-ci iclası və turizm üzrə işçi qrupunun 17-ci iclasının qərarına əsasən Şamaxı şəhəri 2023-cü il üçün "Türk dünyasının turizm paytaxtı" seçildi.

***Könül Məmmədova***
***YAP fəalı, "Tərəqqi" medallı***

# DİQQƏT: "Meymun çiçəyi" virusu Azərbaycana yayılıb?




***"Meymun çiçəyi" virusu intoksikasiya dəri və selikli qişalarda vezikula pustula səpki ilə xarakterizə olunan kəskin infeksion xəstəlikdir. Bu virus ilk dəfə 1958-ci ildə meymunlardan əldə edilib. Xəstəliyə ən çox Afrika ölkələrində təsadüf olunur". Bu sözləri SİA-ya açıqlamasında həkim infeksionist Xatirə Əliyeva deyib. Onun sözlərinə görə, xəstəliyin əsasən 2 ştammı var ki, bunlar Mərkəzi və Qərbi Afrika ştammıdır: ""Meymun çiçəyi" xəstəliyi pandemik infeksiya deyil, tək-tək rast gəlinən infeksiyadır. Ən çox 4 yaşa qədər uşaqlar arasında təsadüf edilir və ölüm faizi isə 4 faiz ilə 22 faiz arasında olur.***



Hal-hazırda bu xəstəlik Portuqaliya, Böyük Britaniya və İspaniyada qeydə alınıb. Hələlik Azərbaycanda yoxdur. Lakin insanların ölkələrə səfər etməsi ilə əlaqədar bu xəstəliyin ayrı-ayrı ölkələrə yayılmasına səbəb ola bilər. Çünki infeksiya sərhəd tanımır. Ölkəmizdə də ola bilər ki, tək-tək müşahidə olunsun".

Xatirə Əliyeva sözlərinə belə davam edib: "Xəstəliyin keçmə yolu hava, damcı və fiziki təmas yolu ilədir. Xəstəliyin mənbəyi bu infeksiyaya yoluxmuş viruslu insandır. Bütün infeksion xəstəliklərdə gizli dövr deyilən bir dövr olur. Yəni, insan xəstəliyə yoluxub, lakin əlamətlər 14 gündən sonra üzə çıxır. Gedişi təbii çiçəyi xatırladır. Xəstəlik ümumi zəiflik, titrətmə, baş ağrısı və temperaturun 39-40 dərəcə selsiyə yüksəlməsi ilə başlayır. Sonra xəstənin iştahı pozulur. Əzələ-oynaq ağrıları da qoşulur.

Xəstəliyin 3-4-cü günü dəri və selikli qişalarda əvvəl üzdə, yuxarı ətraflarda, ovucun içində sonra gövdədə və aşağı ətraflarda səpkilər əmələ gəlir. Əsasən xəstəni narahat edən bu səpkilərin qaşınma ilə müşahidə olunmasıdır. Səpkilər monomor xarakteri daşıyır. Yəni, dəri və selikli qişaların üzərində eyni zamanda həm vezikula, pustula həm qabıq, həm də çapıqlaşma müşahidə olunur.

Bir də onu qeyd etmək istərdim ki, əgər profilaktik məqsədlə uşağa suçiçəyi əleyhinə vaksin vurulubsa, onda bu xəstəliyi ya tutmur, tutursa da çox yüngül keçirir. Əgər bu əlamətlərdən hər hansı biri uşaqda qeyd olunursa, mütləq həmin uşaq izolyasiya edilməli və dərhal həkimə müraciət etmək lazımdır".

***Ayşən Vəli***

*Xəbər verildiyi kimi, Ermənistanın baş naziri Nikol Paşinyan hökumət saatında çıxış edərək mayın 22-də Avropa İttifaqı Şurasının sədri Şarl Mişelin vasitəçiliyi ilə Brüsseldə Azərbaycan prezidenti İlham Əliyevlə görüşünün yekunlarına dair bir sıra şərhlər verib.*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması" istiqaməti çərçivəsində hazırlanıb.*

# Rus politoloq: "Qarabağın qalan hissəsinin Bakının nəzarətinə keçməsi qaçılmazdır"



***Aleksandr Razuvayev: "ABŞ və Fransanın Ermənistanı dəstəklədikləri aydındır, Azərbaycanın cəsarəti var ki, öz milli maraqlarını təmin etsin"***

Ekspertlərin fikrincə, Ermənistan liderinin açıqlamalarında yeni heç nə yoxdur. Amma müxalifətin Paşinyanın dinc bəyanatlarından siyasi məqsədlər üçün istifadə edən sərtləşən etiraz üsulları və ümumiyyətlə, onun dinc gündəmi təbliğ etməsi fonunda Ermənistan lideri hələ də taktikaya sadiq qalır: ən yaxşı müdafiə hücumdur. Onu separatçı Qarabağın maraqlarını təslim etməkdə və Ermənistanın dövlətçiliyini itirməsinə doğru irəliləməkdə ittiham edən müxalifət indi ölkə prezidentinin iqamətgahını, nazirlikləri və digər strateji əhəmiyyətli dövlət obyektlərini bağlayanda Paşinyan xatırladır ki, məhz həmin müxalifətin sayəsində münaqişə Ermənistana miras qalıb və onlar müharibədən başqa seçim buraxmayıblar. Paşinyan, analitiklərin fikrincə, ardıcıl, sərt və faktiki olaraq, konstruktiv şəkildə müxalifətə cavab verir, dinc gündəmi təbliğ edir.

Eyni zamanda, Brüsseldə keçirilən üçtərəfli görüşün yekunlarına əsasən, Pyaşinyan, xüsusilə, Avropa Şurasının rəhbəri Şarl Mişelin "erməni etniklərinin hüquqları və təhlükəsizliyi" məsələsinin həllinin vacibliyinə dair tezisinin olduğunu bildirib. Ermənistan liderinin getdikcə separatçı Qarabağın "təslim olmasına" yaxınlaşdığını düşünən müxalifəti belə bir siyasət qətiyyən qane etmir.

Paşinyan özü Azərbaycanı tənqid edir və eyni zamanda sülh gündəminin tərəfdarıdır. Bunu Ermənistan-Azərbaycan nizamlanmasında irəliləyiş perspektivləri baxımından necə şərh etmək olar? - bu haqda rusiyalı politoloq Aleksandr Razuvayev "Moskva-Baku" portalına müsahibəsində maraqlı fikirlər bildirib. Ekspertin rəyini oxucularımıza təqdim edirik.

-Azərbaycanla Ermənistan arasındakı müharibə 2020-ci ildə məğlub olan sonuncu müharibə oldu. Azərbaycan ordusu rəqiblərindən qat-qat güclü idi. İki ölkənin iqtisadi potensialı da müqayisə olunmaz idi. Eləcə də, fikrimcə, əhalinin əhval-ruhiyyəsi. Ermənistanın sadəcə olaraq seçimi yoxdur. Siz, əlbəttə ki, pişiyin quyruğunu hissə-hissə kəsə bilərsiniz. Amma İrəvan Bakının bütün şərtləri ilə razılaşmalı olacaq. Düşünürəm ki, cənab Paşinyan hər şeyi Azərbaycanın xeyrinə imzalamağa məcbur olacaq, bu, onun üçün daha da yaxşı olacaq- bütün bu illər ərzində dövlət başçısı kimi onu təqib edən başağrısı keçəcək. Hesab edirəm ki, bundan sonra əhalidə sağlam düşüncəyə doğru hərəkat daha da güclənəcək.

Paşinyan bu illər ərzində, xüsusən də İkinci Qarabağ müharibəsindən sonra siyasi həyatda xüsusi canlılığını nümayiş etdirdi. Düşünürəm ki, Qarabağ nizamlanması ilə bağlı üçtərəfli bəyanat imzalanandan sonra onu devirmək mümkün ola bilərdi, indi müxalifətin müxtəlif cəhdlərinə baxmayaraq, bu, daha da çətinləşəcək, hətta deyərdim, demək olar ki, mümkünsüz olacaq. Paşinyan yaxşı mənada situasiyaya uyğunlaşan siyasətçi kimi üzə çıxdı.

Başqa bir məsələ də budur ki, onun mövqeləri kifayət qədər mürəkkəbdir. O, özünü döyüşürmüş kimi göstərir, sadəcə olaraq başqa yolu yoxdur, ona görə də Brüsseldəki üçtərəfli görüşdən sonra belə bəyanatlar verilir.

Göründüyü kimi, Azərbaycan, Ermənistan liderlərinin və Avropa İttifaqı Şurasının rəhbərinin Brüsseldə keçirilən növbəti üçtərəfli görüşündən sonra rəsmi İrəvan köhnə ənənəvi akkordlarına başlayıb ki, Ermənistan Zəngəzur dəhlizi layihəsinin həyata keçirilməsini rədd edir- prinsipcə, "dəhliz" məntiqini. Bunu biz mütəmadi olaraq İrəvandakı ayrı-ayrı məmurlardan eşidirik. Bu, bütün bunlara baxmayaraq, əvvəllər, prinsipcə, Paşinyan, ola bilsin, Zəngəzur dəhlizinin Ermənistan hissəsinin tikintisinə razılıq verib.

Hər halda Ermənistan yenə də Zəngəzur dəhlizinə razı olacaq. "Qorxu hekayələri" var ki, dəhliz reallaşarsa, o zaman bölgədə Türkiyə üstünlük əldə edəcək. Əslində dəhlizin ilk növbədə Ermənistanın özü üçün vacib olduğu göz qabağındadır. Bəli, etiraf edirəm ki, Türkiyə ixracını artırmaq üçün bundan istifadə edəcək. Qoy olsun. Qərb şirkətləri Rusiyanı tərk edir, Ərdoğan öz malları ilə onların yerinə gələcəyini, türklərin bu vəziyyətdə çox yaxşı pul qazanacağını söylədi.

Ümumiyyətlə, Ermənistanın baş nazirinin- rəsmi Yerevanın üçtərəfli danışıqlardan sonra verdiyi bütün bəyanatlar onların məqsədidir- revanşist düşüncəli əhaliyə, müxalifətə hakimiyyətin Ermənistanın milli maraqları, uğrunda mübarizə apardığını göstərməkdir. Bundan əlavə, sülh gündəliyi müvafiq olaraq əhalinin sülh tərəfdarı olan hissəsi üçün nəzərdə tutulub. Həm də belə bəyanatlar Qarabağla bağlı alver cəhdidir. Düzdür, bəzi kozırlarınız olanda sövdələşmə edə biləcəyiniz göz qabağındadır. Amma bu gün Ermənistanın kozırları yoxdur.

Diqqətinizə çatdırmaq istərdim ki, rəsmi İrəvan son aylar Qarabağla bağlı ifadələri yumşaldıb. İndi İrəvan tərəfdən "Qarabağ ermənilərinin hüquqları və təhlükəsizliyi" kimi ifadələr səslənir. Bəzən buna "Qarabağın statusu" da əlavə olunur. Erməni mövqeyindən hüquq və təhlükəsizlik Qarabağın statusunu nəzərdə tutur, lakin diqqətçəkən odur ki, bəzən biri digəri olmadan səslənir. Məsələn, mayın 22-də Əliyev, Paşinyan və Mişel arasında keçirilən üçtərəfli görüşdən sonra Avropa Şurasının rəhbəri öz adından "Qarabağın erməni etnik əhalisinin hüquqları və təhlükəsizliyi" məsələsinin həllinin vacibliyini bəyan edib. Bundan sonra Paşinyan hökumət iclasında bildirdi ki, bu, Mişelin şəxsi fikridir. Bütün bunlara baxmayaraq, görünür, Brüssel görüşü çərçivəsində belə bir ifadə, yəqin ki, tərəflər tərəfindən razılaşdırılıb. Ona görə də İrəvan tərəfdən bu elə bir oyundur ki, bunu üçüncü tərəf səsləndirib, amma biz tam razı deyilik. Baxmayaraq ki, biz razılaşırıq. Qarabağın qalan hissəsinin yenidən Bakının nəzarətinə keçməsi qaçılmazdır. Ermənilər keçmişdə yaşamamalıdırlar. Və bu nə qədər tez baş versə, bir o qədər yaxşıdır. Azərbaycan müharibədə qalib gəlib və bu, faktdır. Bundan əlavə, maraqlı tərəflər həlli istədikləri qədər gecikdirə bilərlər, lakin Azərbaycanın qələbəsinin nəticəsi yenə də mümkün qədər sabitləşəcək. Altı ay tez, altı ay gec fərqi yoxdur. Rusiyanın özü də buna qarşı deyil. Nəticə etibarı ilə İrəvan sadəcə olaraq başqa cür hərəkət etmək gücü və imkanı olmadığı üçün Bakının bütün şərtləri ilə razılaşacaq.



Müxalifət, gördüyümüz kimi, ona lazım olan miqdarda əhalini küçələrə çıxara bilmir. Görünür, ölkənin müharibədə məğlub olmasına və iqtisadi çətinliklərə baxmayaraq, onun dəstəyi yoxdur. Müxalifətin populyar olmadığı aydındır. Əhali müxalif qüvvələrin çağırışlarına kifayət qədər biganədir, ona görə də inqilab etmək işə yaramayacaq.

Biz görürük ki, Qərb neçə aydır ki, Ermənistan-Azərbaycan istiqamətində fəallıq göstərməyə çalışır. Amma bu, sadəcə, siyasi şoudur. Avropa İttifaqı öz geosiyasi əhəmiyyətini müəyyən etməyə çalışır. Qərb Rusiyanı incitmək üçün bunu etməyə çalışır. ATƏT-in Minsk Qrupunun necə "işlədiyini", Fransanın hansı bəyanatlarla çıxış etdiyini, ABŞ-ın nə etdiyini xatırlayırıq. Onların hamısı Ermənistanla bir yerdə oynadılar. Biz görürük ki, ABŞ və Fransa münaqişə tərəfləri ilə münasibətdə nə qədər balanslı görünməyə çalışsalar da, vaxtaşırı Ermənistanın xeyrinə qərəzli münasibət ortaya qoyurlar. Niyə? Çünki orada böyük və nüfuzlu erməni diasporları fəaliyyət göstərir. Fikrimcə, xaricdəki erməni millətçiliyi Ermənistanın özündən də güclüdür. Diasporun Ermənistan rəhbərliyinə təsiri var. ABŞ və Fransa Azərbaycana və Ermənistana qarşı açıq fikirli olduqlarını desələr də, onların daha çox erməni tərəfini dəstəklədikləri aydındır. Çoxları Ermənistanı dəstəkləyir, belə də oldu, amma Azərbaycanın cəsarəti var ki, öz milli maraqlarını təmin etsin.

Azərbaycan həqiqətən də, müstəqil şəkildə öz problemlərini həll etdi, çünki o, əvvəlcədən hazırlaşaraq, yəqin ki, diplomatiya ilə nəticə verməyəcəyini dərk edib. Və kritik məqam gələndə, diplomatiyanın artıq kömək etməyəcəyi bəlli olanda o, problemi hərbi yolla tez və effektiv şəkildə həll etdi. Və bu baxımdan Azərbaycana ancaq hörmətlə yanaşmaq olar. Heç kimdən borc almadan, heç kimdən heç nə istəmədən problemini özü həll edir.

Təbii ki, mənim fikrimcə, Qərbin Ermənistan-Azərbaycan istiqamətində aktivliyi fonunda Rusiya taktikasını dəyişməlidir- fəallaşmalıdır, öz işini göstərməlidir. Qərb sanki işləyirmiş kimi davranır. Rusiya Xarici İşlər Nazirliyi dəfələrlə qeyd edib ki, Qərb Ermənistan-Azərbaycan nizamlanmasına daxil olmağa çalışır.

Bu vəziyyətdə Rusiya təkcə Ukrayna ilə deyil, türk dünyası ilə də məşğul olmalıdır. Əgər dövlət olaraq Qarabağın Azərbaycan olması ilə bağlı rəsmi mövqeyiniz varsa, demək işə ondan başlamalısınız. Biz bu gün Qərblə necə münasibətlərimiz olduğunu görürük- əldə etdiklərimizi aldıq. Kimin bizim tərəfdaşımız, kimin dostumuz olduğunu yüksək səslə müəyyən etməliyik. Hindistan və Çin Rusiyanın tərəfdaşıdır, biz onları silah texnika ilə təmin edirik və s. Bizim dostlarımız isə türk dünyasıdır. Bu Azərbaycandır, Türkiyədir və s. Əslində, biz daha çox Şərq təmayüllü ölkəyik və türk ölkələri ilə xüsusi əlaqələrimiz var: iqtisadi, mədəni və digər sahələrdə.

Rusiya Ukraynadan başqa digər istiqamətlərdə aktivliyi azaldıb. Amma o, başqa sahələrdə daha aktiv olmalıdır. Bu gün Rusiya tamamilə Ukrayna məsələsi məşğuldur, bu, mənim nöqteyi-nəzərimdən yanlışdır. Türk dünyası ilə əlaqələr Rusiya üçün prioritet olmalıdır. Əgər biz çoxqütblü dünya ideyasını təbliğ ediriksə, o zaman bütün platformalarda, bəlkə də müxtəlif effektivlik dərəcələrində oynamalıyıq. Lakin Rusiya üçün postsovet məkanı ilə bağlı "hekayələr" əsas olmalıdır. Əks təqdirdə, kifayət qədər inam, qarşılıqlı əlaqə, tərəfdaşlıq, həqiqi ittifaq yaratmadan, təsadüfən onu əldən verə bilərsiniz.

***Elçin Bayramlı***

SON SƏHİFƏ

# Səs

28 may
2022-ci il

# "Barselona" 10 futbolçuya qapını göstərir!




*Bu yay "Barselona"nı xeyli çox futbolçu tərk edə bilər. Qol.az ESPN-ə istinadən xəbər verir ki, Kataloniya klubunun rəhbərliyi 10-dan çox futbolçuya yeni komanda axtarmağı təklif edəcək.*

Baş məşqçi Xavi heyəti yenidən qurmağı planlaşdırır. Lakin bəzi oyunçular ayrılmaq istəmirlər. Həmçinin, "Barselona"da aldıqları yüksək maaşlar səbəbindən klub onları satmaqda çətinlik çəkir. Xavi Riki Puçu, Oskar Minqesa, Martin Braytveyt və Samuel Umtitiyə onlarla uzunmüddətli planlarının olmadığını bildirib. Kleman Lanqle, Ferran Cucle, eləcə də icarədən qayıdan Miralem Pyaniç və Fransisko Trinkaunun da ayrılması istənilir.

"Barsa" bu mövsüm klubda icarə əsasında çıxış edən Adam Traore və Luc de Yonqu da satın almayacaq. Usman Dembele və Dani Alveşin gələcəyi ilə bağlı qeyri-müəyyənlik var. Onların müqavilələri iyunun 30-dək qüvvədədir. Çətin maliyyə vəziyyətinə görə klub Memfis Depay və Frenki de Yonq üçün yaxşı təklifləri də dinləməyə hazırdır.




***Azərbaycanda qanunla qadağan olunan şəxslərdən transplantasiya məqsədilə donor orqanının götürülməsinə görə cəzalar müəyyən edilir. SİA-nın xəbərinə görə, bununla bağlı Cinayət Məcəlləsinə dəyişiklik layihəsi parlamentin dünən keçirilən iclasında I oxunuşda müzakirəyə çıxarılıb.***

# Qanunla qadağan olunan şəxslərdən orqan götürənlər həbs olunacaq

Dəyişikliklə qanunla qadağan olunan şəxslərdən transplantasiya məqsədilə donor orqanının götürülməsi 9000 manatdan 15 min manatadək miqdarda cərimə və ya 3 ilədək müddətdə müəyyən vəzifətutma və ya müəyyən fəaliyyətlə məşğulolma hüququndan məhrum edilməklə və ya edilməməklə 4 ilədək müddətdə azadlıqdan məhrumetmə ilə cəzalandırılacaq.

Həmin əməllər təkrar törədildikdə, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik tərəfindən törədildikdə zərərçəkmiş şəxsin köməksiz vəziyyətindən istifadə etməklə və ya onun təqsirkar şəxsdən maddi, xidməti və s. cəhətdən asılı olmasından istifadə etməklə törədildikdə 3 ilədək müddətə müəyyən vəzifətutma və ya müəyyən fəaliyyətlə məşğulolma hüququndan məhrum edilməklə və ya edilməməklə 3 ildən 5 ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılacaq.

Həmin əməl ehtiyatsızlıqdan şəxsin ölümünə səbəb olduqda 3 ilədək müddətdə müəyyən vəzifətutma və ya müəyyən fəaliyyətlə məşğulolma hüququndan məhrum edilməklə və ya edilməməklə 4 ildən 7 ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılacaq. Dəyişiklik layihəsi səsverməyə çıxarılaraq I oxunuşda qəbul edilib.

# Ağciyər xərçənginin qarşısını alan keçibuynuzu

***Xarici görünüşünə görə keçinin buynuzlarını xatırlatdığına görə ona keçibuynuzu adı verilib. Lakin bəzən onu "Yaqub peyğəmbərin çörəyi", " buynuz ağacı" da adlandırırlar. Əvvəlcə sarmaşığı, yetişəndən sonra qəhvəyi rəngli lobyanı xatırladan keçibuynuzu əkiləndən sonra 15 il meyvə vermir.***



Tibbi saytlarında yer alan məlumatlarda deyilir ki, keçibuynuzu meyvələri təzə və quru halda yeyilir, çəyirdəyindən də istifadə etmək mümkündür. Onları üyüdüb suda qaynatdıqdan sonra hazırlanan məlhəmin şiş və yaralara sürtülməsi sağalmanı sürətləndirir. Keçibuynuzunun yarpaq və budaqları qurudulur, çay kimi dəmlənilir. Ondan hazırlanan bəhməzi mütəmadi olaraq qəbul etmək çox faydalıdır.

Nəfəs darlığına qarşı faydalı olan keçibuynuzu meyvələrindəki xüsusi maddə - qall turşusu, demək olar, başqa heç bir meyvədə yoxdur. Bəzi allergik astma xəstəliklərində onun tətbiqi zamanı dərhal nəticə əldə etmək mümkündür.

Keçibuynuzu ağrıkəsici, antiseptik, bronxgenişləndirici xüsusiyyətlərə malikdir, allergiya, astma, xərçəng, ishal, qəbizlik və mikroblara qarşı təsirlidir. Həmçinin qaraciyəri toksinlərdən təmizləyir, immun sistemini gücləndirir, uşaq iflicinin qarşısını alır.

Beş yüz ildən artıq yaşı olan keçibuynuzu ən əksər hallarda ağciyər xərçənginin qarşısını almaq gücünə malikdir. Keçibuynuzu ilə qırmızı turpdan istifadə olunması ağciyər xərçəngində müalicənin təsir gücünü artırır. Tərkibində xolesterolun yoxluğu onun böyük üstünlüyüdür, kofein və teobromin olmağı isə qan təzyiqi zamanı ondan istifadə etməyə imkan verir.

Keçibuynuzu fosfor və kalsiumla çox zəngindir, ona görə də osteoporoz, yeni sümük əriməsi xəstəliyi zamanı kalsium ehtiyacını ödəməyə kömək edir. Orqanizmə daxil olan radiasiyanı xaric edir, taxikardiyanı, mədə və bağırsaq qazlarını xaric edərək şişkinliyi aradan qaldırır. Tərkibində yüksək şəkər olduğuna görə diabet xəstələrinin ondan istifadəsi məsləhət görülmür.



# Məşhur aktrisa bir gündə sırf reklamdan 116 min qazanır

*Özündən 15 yaş kiçik Nazım Akmandillə eşq yaşayan və sevgilisi ilə yayın sonunda evlənməyə hazırlaşan Türkiyənin məşhur aparıcısı, model və aktrisa Burcu Esmersoy gündəlik qazancı ilə gündəmə gəlib.*

Milli.Az oxu.az-a istinadən xəbər verir ki, reklam məzmunlu, reklam məzmunlu paylaşıma görə isə 150 min TL (15 570 AZN) alan 46 yaşlı aparıcı yalnız may ayında sosial şəbəkəsində 5 fərqli brendin reklamını edib.

"Pırlanta" markasının reklamından 2 milyon TL, moda markası ilə əməkdaşlıqdan isə 1 milyon TL alan aparıcı sosial mediadan ümumilikdə 600 min TL qazanıb. Beləliklə, Esmersoy yalnız may ayında 3 milyon 600 min TL qazanıb.

Məşhur aparıcının gündəlik gəlirinin təxminən 116 min TL olduğu deyilir.

**Baş redaktor:**
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**

**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**

**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**

**Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3220**